# QURANI DİNLƏMƏYƏNLƏR



HARUN YƏHYA
(ADNAN OKTAR)

Bəzi insanlar içində nə yazıldığını belə bilmədən Quranı oxumaqdan, öyrənməkdən və dinləməkdən çəkinir, Qurandan üz çevirirlər. Bu insanlar Allah'ın onları hansı həyata, hansı əxlaqa dəvət etdiyini bilmədən Quran ayələrindən qaçırlar. Din əxlaqını tərəfsiz və ön mühakiməsiz şəkildə dəyərləndirmirlər və bir növ nə edəcəyi yaddaşına verilmiş robot kimi Quran əxlaqını yaşamaq üçün edilən dəvəti rədd edirlər.

Bu kitabın yazılmasında məqsəd insanları dünyada və axirətdə böyük iflasa uğradan ön mühakiməli baxış yönünə qarşı xəbərdar etməkdir. Məqsədimiz keçmişdə yaşayan bütün saleh möminlər kimi iman gətirməsindən və ya gətirməməsindən asılı olmayaraq, hər cür ön mühakimədən, əzbərlənmiş məlumatlardan, yanlış fikirlərdən təmizlənmiş şəkildə Quran oxumağa, Allah'ın ayələrinin üzərində düşünməyə dəvət etməkdir. Amma onu da qeyd etmək lazımdır ki, bu xəbərdarlıq sadəcə Allah'ı və Quranı inkar edənlərə deyil, eyni zamanda, iman gətirdiklərini dedikləri halda, Quran əxlaqını yaşamayan insanlara da aiddir. Allah'ın rizasını qazanmaq və dünya və axirətdə gözəl həyat sürmək istəyənlərin tarix boyu bütün saleh qulların etdiyi bu dəvətə razı olmaları ümid edirik ki, onların xilasına vəsilə olacaqdır.



**MÜƏLLİF HAQQINDA:** Harun Yəhya imzasından istifadə edən Adnan Oktar 1956-cı ildə Ankarada anadan olub. 1980-ci illərdən bəri imani, elmi və siyasi mövzularda bir çox əsər yazıb. Bununla yanaşı, müəllifin təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla qaranlıq əlaqələrini üzə çıxaran çox mühüm əsərləri var.

Müəllifin bütün əsərlərindəki ortaq məqsəd Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allah'ın varlığı, birliyi və axirət kimi əsas imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və batil əməllərini nümayiş etdirməkdir. Belə ki, müəllifin bu günə qədər 73 müxtəlif dilə tərcümə edilən 300-dən çox əsəri dünya səviyyəsində geniş oxucu kütləsi tərəfindən oxunur. Harun Yəhya Külliyyatı, Allah'ın izni ilə XXI əsrdə dünyadakı insanları Quranda tərif edilən hüzur və sülhə, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmağa səbəb olacaqdır.


بسم الله الرحمن الرحيم
الله
رسول
محمد



# QURANI DİNLƏMƏYƏNLƏR

**Harun Yəhya (Adnan Oktar)**



# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 73 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (s.ə.v) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allah'ın son kitabı və son sözü, Peyğəmbərimizin (s.ə.v) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allah'ın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana



və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allah'ın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən- günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allah'ın izni ilə 21- ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# OXUCUYA

- Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə Allah'ın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.
- Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allah'ın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allah'ın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.
- Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.
- Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir- birlərinə ötürmək baxımından faydalıdır.
- Bununla belə, yalnız Allah'ın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.
- Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.
- Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

Bu kitabda istifadə edilən ayələr Ə. Musayevin tərcümə etdiyi Qurani- kərim kitabından götürülmüşdür.

www.harunyahya.org - www.harunyahya.net - www.harunyahya.az

# İÇİNDƏKİLƏR

YARADILIŞ HƏQİQƏTİ....................................................8

GİRİŞ...............................................................31

İNSANLAR QURANDA BİLDİRİLƏN
HƏQİQƏTLƏRDƏN NİYƏ QAÇIRLAR?.........................34

QURANI DİNLƏMƏYƏNLƏRİN
GİZLİ LİDERİ: ŞEYTAN...........................................49

ŞEYTANIN İNSANLARI QURANDAN
UZAQLAŞDIRMAQ ÜÇÜN VERDİYİ ƏMRLƏR ............58

YANLIŞ FİKİRDƏN QURTULMAQ..............................85

QURANI DİNLƏMƏYƏNLƏRİN BÖYÜK QƏFLƏTİ .....90

NƏTİCƏ...........................................................93

ƏLAVƏ BÖLMƏ: TƏKAMÜL YALANI ........................95


YARADILIŞ
HƏQİQƏTİ

**De: "Bir deyin görək, sizin Allah` dan başqa tapındıqlarınız yer üzündə nə yaratmışlar? Yoxsa onların göylərin (yaradılmasında) bir şərikliyi var? Əgər doğru danışanlarsınızsa, mənə bundan əvvəl (nazil olmuş) bir kitab və ya elmdən qalan bir əsər gətirin". (Əhqaf surəsi, 4)**

*www.kurandacennet.com*



**Kəpənəklər soyuqqanlı canlılar olduqları üçün bədən temperaturlarının çox yüksəlməməsi və daim nisbətdə tutulması vacibdir. Uçma əsnasında qanadlarda yaranan yüksək temperatur kəpənəklər üçün problemdir. Kəpənəklərin bədənindəki qan qanadlardakı çox incə damarlardan keçir. Kəpənəyin bədənində yaranan artıq temperatur qanadlardakı incə damarlarda qanın dövranı ilə birlikdə xaricə atılır. Bu, Allah` ın yaratmasıdır.**

*www.yaratilisgercekleri.com*



**Dünyada yaşayan on mindən çox quş növünün hər biri müxtəlif xüsusiyyətlərə malikdir. Şahinin iti gözləri, geniş qanadları və sivri pəncələri var. Bir neçə yüz qramlıq yağmur quşları hər il qışlamaq üçün 4.000 kilometrlik yolu 88 saat qanad çırparaq və okeanın üstündə dəstələrini itirmədən qət edirlər. Allah hər canlını müxtəlif xüsusiyyətlərlə yaratmışdır.**

***www.darwinvekuslar.com***



**Yüksək dərəcəli temperaturda bütün yay boyu yarpaqları günəşin altında qovurulmasına baxmayaraq, bitkilərə heç nə olmur. Yarpaqların günəşə tərəf olan üst hissələri su itkisinin qarşısını almaq üçün xüsusi qoruyucu təbəqə ilə örtülmüşdür. Bundan başqa, su yarpaqlardan buxarlanır və tərləmə baş verir. Su buxarlanarkən tərləmə sayəsində bitki sərinləyir. Uca Allah yaratdığı bütün canlıları ən yaxşı biləndir, qoruyandır.**

***www.yaratilisguzellikleri.com***



**Yaratdıqlarımızı öz istifadələrinə verdik ki, bəzilərindən minik kimi yararlansınlar və bəzilərini də yesinlər. Bunlarda onlar üçün (başqa) mənfəətlər və içiləcək süd də vardır. Yenə də şükür etməyəcəklərmi? (Yasin surəsi, 72- 73)**

*www.kaderinaciklamasi.com*



**Yeddi göy, yer və onlarda olanlar Ona təriflər deyir. Elə bir şey yoxdur ki, həmd ilə Ona tərif deməsin, lakin siz onların tərifini anlamazsınız. Həqiqətən, O, həlimdir, bağışlayandır.**
**(İsra surəsi, 44)**

*www.Kurandayaratilis.com*



**Bir çox bitki növü tırtıllardan qorunmaq üçün uçucu xüsusiyyətə malik kimyəvi maddə ifraz edirlər. Bu kimyəvi maddələr sayəsində tırtılların düşməni olan ovçu həşəratlar bura gəlir və tırtılları yeyərək bitkini qoruyurlar. Şübhəsiz ki, bitki özünü düşmənlərindən qorumaq üçün belə strategiya hazırlaya bilməz. Bitkini qüsursuz xüsusiyyətlərlə yaradan aləmlərin Rəbbi olan Allah'dır.**

***www.belgeseller.tv***



**Pişik balaları doğulduqları zaman kor və müdafiəsiz olurlar. Təxminən 100 qr. ağırlığındakı balalara baxmaq üçün ana pişik çox az yatır. Daim balalarının isti qalmalarını və müdafiəsini təmin etməyə çalışır. Ananın südü balaların böyüməsi üçün tam lazım olan xüsusiyyətdədir. Bu canlıların balalarına olan şəfqəti ancaq bütün canlıların hakimi olan Allah'ın ilham etməsi ilə yaranır.**

***www.darwinnedenyanildi.com***



**Sınıq zamanı ağrı hissinə səbəb olan sinirlər onurğa iliyi ilə beyinə daha çox siqnal yollayır. Beyin hüceyrələri isə ilk 10-15 dəqiqədə ağrı siqnallarını demək olar ki, sıfıra endirən morfinə bənzər təbii anesteziya maddəsi olan endorfini ifraz etməyə başlayır. Bunun sayəsində yaralanan insanın təhlükə yerindən uzaqlaşmaq üçün gücü olur. Şüursuz hüceyrələrə bu xüsusiyyətləri verən uca Allah'dır.**

***www.darwinistlerinferyatlari.com***



**150 ildən bəri əldə edilən fosil qeydləri canlı növlərinin heç vaxt dəyişmədiyini və bir- birinə çevrilmədiyini sübut etmişdir. Dövrümüzdə yaşayan nümunələrindən heç bir fərqi olmayan 146- 65 milyon illik xərçəng fosili bu həqiqəti bir daha vurğulayır.**

***www.metafizikbilgiler.com***



***146- 65 milyon illik xərçəng fosili və dövrümüzdə yaşayan xərçəng***





**Təqribən 200 milyon ilə yaxın heç bir dəyişikliyə uğramayan xərçənglər darvinistlərin bütün iddialarını əsassız edən xüsusi elmi tapıntılardan biridir. Yer üzünün bir çox bölgəsindən çıxarılan milyonlarla fosil eyni həqiqəti ortaya qoyur: tarixin heç bir dövründə təkamül yaşanmamışdır. Təkamül sadəcə darvinistlərin xəyallarındakı hekayədən ibarətdir.**

*www.Allahinmunissanati.com*

*Dövrümüzdə yaşayan xərçəng və 208-146 milyon illik fosili*





***Pelobatidae*** **(sarımsaq qurbağası) sinfinə daxil olan bu qurbağa cinsinin bir qismi arxa ayaqları ilə torpağı qazaraq torpağın içində, bir qismi də sulu yerlərdə yaşayır. Bu heyvanlar anidən ortaya çıxmış, yəni yaradılmışlar və ortaya çıxdıqları andan bu yana heç bir təkamülə məruz qalmamışlar.**

***www.guncelhaber.org***





***50 milyon illik qurbağa fosili və yan tərəfdə dövrümüzdə yaşayan qurbağa.***

**İlan ulduzu təkamülü qəti təkzib edən yaşayan fosildir. İstər 300 milyon il, istər 245 milyon il və istərsə də 150 milyon il öncə yaşayan nümunələri dövrümüzdəkilərlə tam eynidir. Yüz milyon illərlə eyni qalan ilan ulduzları təkamülün yalan olduğunu göstərir.**

***www.yaratilismuzesi.com***

*150 milyon illik ilan ulduzu fosili və dövrümüzdə yaşayan ilan ulduzu*





**Qurdlar bu günkü xüsusiyyətləri ilə yaradılmışlar və milyonlarla ildir dəyişməmişdir. Məməlilərin mənşəyi mövzusunda təkamülçülərin irəli sürdükləri iddialar ağılsız və məntiqsiz hekayələrdən ibarətdir. Heç bir elmi dəlilə əsaslanmayan bu hekayələr təbliğat xarakteri daşıyır. Əlbəttə, hər kəs istədiyi kimi ssenarilər yaza bilər, fantastik üslubdan istifadə edə bilər, lakin bu ssenarilərə elmi don geydirmək doğru deyil.**

***www.dawkinsecevap.com***



**Budur Allah – sizin Rəbbiniz. Ondan başqa ilah yoxdur. Hər şeyin yaradıcısı (Allah` dır)! Elə isə Ona ibadət edin! O, hər şeyi qoruyandır. (Ənam surəsi, 102)**

*www.darwinizminyalanlarinaaldanmayin.com*



*Dövrümüzdəki qurdlarla 9.5 milyon yaşı olan qurd kəlləsinin fosili eynidir.*

**Bu günə qədər heç bir boz ayı: "Niyə özümü inkişaf etdirib sivilizasiya qurmuram", - deyib şəhərlər inşa etməyə, sənət əsərləri meydana gətirməyə, ədəbi əsərlər yazmağa, elmi kəşflər etməyə başlamamışdır. Ayılar həmişə ayı olmuş, heç bir canlıya çevrilməmişlər. Bütün canlılar sahib olduqları xüsusiyyətlərlə soylarını davam etdirmişlər. Meymunların insana çevrildiyini iddia etmək ağılsızlıqdır. Bu iddianın heç bir elmi əsası yoxdur.**

*www.fosiller.net*





*Dövrümüzdə yaşayan boz ayı ilə 90 milyon illik boz ayının kəllə fosili heç bir dəyişikliyə uğramadan eynidir.*

**Məgər onlar görmürlər ki, göyləri və yeri yaradan Allah onlar kimisini də yaratmağa qadirdir? Allah onlar üçün (elə) bir əcəl müəyyən etmişdir ki, ona heç bir şəkk- şübhə yoxdur. Zalımlar isə küfrdən başqa bir şey qəbul etmədilər. (İsra surəsi, 99)**

*www.darwinistlersoruncevaplayalim.com*



*9.3 milyon illik qurd kəlləsinin fosili ilə dövrümüzdə yaşayan qurd eynidir.*



**Ən vəhşi heyvan kimi tanınan və pişiklər fəsiləsinin nümayəndələri olan şir, bəbir və pələngin dərilərindəki naxışların fərqli olduğunu bilirsinizmi? İnsanların barmaq izi kimi bu naxışlar da hər bəbir və yaquarda fərqlidir.**

***www.darwinnedenyanildi.com***





***80 milyon illik pələng kəlləsinin fosili ilə dövrümüzün pələngləri eynidir.***

**O, Xaliq, yoxdan yaradan, surətverən Allah'dır. Ən gözəl adlar yalnız Ona məxsusdur. Göylərdə və yerdə olanların hamısı Onun şəninə təriflər deyir. O, qüdrətlidir, müdrikdir. (Həşr surəsi, 24)**

*www.evrimbilim.com*





***95 milyon illik tülkü kəlləsinin fosili ilə dövrümüzün tülküləri eynidir.***

**Fosil tapıntıları təkamül nəzəriyyəsinə vurulan ən böyük zərbədir. Çünki:**

**1. Təkamülçülər canlıların daim kiçik dəyişikliklərə uğra-yaraq sadədən mürəkkəbə doğru inkişaf etdiyini iddia edirlər. Fosil tapıntıları isə canlıların yüz milyon illərlə kiçik bir dəyişikliyə belə uğramadığını isbatlamışdır.**

***www.baltikamberleri.com***



***Livanda tapılmış 95 milyon illik zarqan fosili ilə dövrümüzdə yaşayan zarqan bir- birinin eynidir.***



***Belonidae sinfinə daxil olan zarqan-lar incə uzun qu-ruluşa sahibdir. Sıçrayaraq suyun üzərinə çıxa bilir və quyruqlarının üzərində yenidən suya geri qayıda bilirlər. Bu me-toddan düşmənlə-rindən qaçmaq üçün istifadə edir-lər.***

**2. Təkamülçülər bütün canlıların xəyali ortaq atadan törədiklərini irəli sürürlər. Bu günə qədər canlı növlərinin atası kimi qəbul edilən bir dənə fosil nümunəsinə belə rast gəlinməmişdir.**
**3. Təkamülçülər canlıların bir- birlərindən törədiklərini və bunu göstərən ara- keçid forması olduğunu iddia edirlər. Lakin 150 il ərzində aparılan araşdırmalar nəticəsində bir dənə belə ara canlılara aid fosil tapılmamışdır.**

***www.bocekfosilleri.com***



*Almaniyada tapılan 208- 146 milyon illik krevet fosili ilə dövrümüzdəki krevet arasında heç bir fərq yoxdur.*


QURANI
DİNLƏMƏYƏNLƏR

# GİRİŞ

Bir anlıq həyatınız boyu ən çox sahib olmaq istədiyiniz imkanın sizə verildiyini, lakin bu imkanı layiqincə dəyərləndirmədiyinizi düşünün. Həyatınızı tamamilə dəyişdirən bu yanlış qərardan sonra kim bilir nə qədər peşman olar, o ana geri qayıdıb qərarınızı dəyişdirmək istəyərsiniz. Amma artıq çox gecdir və zamanı geriyə çevirmək mümkün deyil. Ən ağıllı hərəkət isə bundan sonra belə bir səhv etməmək üçün tədbirli davranmaqdır. Bu yanlış qərarı verərkən bəzi insanları düşünür və bir daha bu cür insanların təsiri altına düşməmək üçün özünüzə söz verirsiniz.

Hal-hazırda bir çox insan bu vəziyyətdədir. Dünyadakı bütün insanlara geniş imkanlar verilmişdir. İnsanların əksəriyyəti isə bu imkanları görməməzliyə vururlar. Allah həm bu dünyada bütün insanlara gözəllik, ədalət, bolluq, rifah, rahat həyat, həm də axirətdə insanın düşünə bilmədiyi əbədi həyat vəd etmişdir. Bu yola Allah'ın elçiləri və insanlara rəhbər olaraq endirdiyi müqəddəs kitablar vasitəsilə bütün insanlar dəvət edilmişdir.

Hz. Muhəmmədin (s.ə.v) də Quranla insanları doğru yola dəvət etməsi, haqqı ilə təqdir edənlər üçün vacib fürsət, böyük lütf və Allah'ın bir nemətidir. Vicdanlı və ağıllı olan hər insan bu fürsəti diqqətlə dəyərləndirməli, düşünməli və bu fürsətdən istifadə etməlidir. Əksi isə, yəni Quranda bildirilən həqiqətləri görməzlikdən gəlmək, dinləməmək, düşünməmək və ya bu həqiqətləri inkar edərək qaçmaq, axirətdə böyük peşmanlığa səbəb olar. Üstəlik, bu peşmançılığın heç bir faydası da olmayacaq.

Allah'ın dəvətini bu gün qəbul etməyənlər o ağır gün gəldiyi zaman: **"…Kaş ki, bizi qaytaraydılar! Onda biz Rəbbimizin ayələrini yalan saymayıb möminlərdən olardıq.** (Ənam surəsi, 27)" - deyəcəklər. O gün hər insan dünya həyatında etdiyi hərəkətlərin əvəzini alacaq.

Onu da qeyd etmək lazımdır ki, içində nə yazıldığını belə bilmədən Quranı oxumaqdan, öyrənməkdən və dinləməkdən çəkinən, Qurandan üz çevirən insanlar əksəriyyət təşkil edir. Bu insanlar Allah'ın onları hansı həyata, hansı əxlaqa dəvət etdiyini bilmədən Quran ayələrindən qaçır, elçilərin dəvətini rədd edirlər. Bu, insanları uçuruma aparan böyük addımdır. Buna baxmayaraq, insanların əksəriyyəti qəflətdə olduqlarından və yanlış fikirlərinə görə öz vəziyyətlərindən bixəbərdirlər.

Bu kitabın yazılmasında məqsəd insanları dünyada və axirətdə böyük iflasa uğradan ön mühakiməli baxış prizmasına qarşı xəbərdar etməkdir. Keçmişdə yaşayan bütün saleh möminlər kimi iman gətirməsindən və ya gətirməməsindən asılı olmayaraq, hər cür ön mühakimədən, əzbərlənmiş məlumatlardan, yanlış fikirlərdən təmizlənmiş şəkildə Quran oxumağa, Allah'ın ayələrinin üzərində düşünməyə dəvət etməkdir. Amma onu da qeyd etmək lazımdır ki, bu xəbərdarlıq sadəcə Allah'ı və Quranı inkar edənlərə deyil, eyni zamanda, iman gətirdiklərini dedikləri halda, Quran əxlaqını yaşamayan insanlara da aiddir.

Keçmişdə yaşayan bütün peyğəmbərlər də göndərildikləri qövmləri Allah'a iman gətirməyə və haqq dinə tabe olmağa dəvət etdikləri zaman inkarla qarşılaşmışdılar.

Bu baxımdan, kitabda verilən nümunələrin bütün haqq kitablara aid olduğu və hər bir elçinin oxşar cavablarla qarşılaşdığı unudulmamalıdır. Bu kitabda "Quranı dinləməyənlər", "Qurandan qaçanlar" kimi adlandırdığımız insanlar keçmişdə yaşayan bütün elçilərə, bütün haqq kitablara oxşar münasibət göstərən, iman gətirməməkdə

israr edən, həqiqətlərdən qaçan insanları ifadə edir.

Məqsədimiz insanları yenidən Quranda bildirilənlər üzərində düşünməyə sövq etmək, Allah'a təslim olmağa dəvət etməkdir. Bundan başqa, Allah'ın Quranda xəbər verdiyi **"Allah'ın təbliğatçısını qəbul etməyən kimsə yer üzündə (Allah'dan) yaxa qurtara bilməz və Ondan başqa onun himayəçi dostları da olmaz. Onlar aşkar azğınlıq içindədirlər. (Əhqaf surəsi, 32)"** ayəsinin hökmünü bir daha xatırlatmaqdır.

# İNSANLAR QURANDA BİLDİRİLƏN HƏQİQƏTLƏRDƏN NİYƏ QAÇIRLAR?

İnsan dünyaya gəldiyi andan etibarən hər şeyi öyrənməyə səy göstərir. Uşaqlıq dövründə gördüyü, hiss etdiyi və oxuduğu hər şey onun üçün yeni və həyəcan verici olur, lakin müəyyən zaman keçdikdən sonra bu araşdırma və yeni şeyləri öyrənmə cəhdi öz yerini alışqanlığa, böyüklərdən qalma hazır məlumatlara verir. Qeyd-şərtsiz qəbul edilən bu qəlibləşmiş məlumatların nəticəsində isə araşdırma və düşünmə qabiliyyətini itirmiş, görüb və hiss etdiyi hər bir şeyi sorğu-sualsız icra edən insan modeli ortaya çıxır. Bu insan üçün artıq cəmiyyətin pis dediyi pis, yaxşı dediyi isə yaxşıdır. Pisin niyə pis, yaxşının niyə yaxşı olduğu araşdırılmır.

Bu mövzuda diqqəti cəlb edən isə insanların din mövzusunda əvvəldən qalma məlumatlara bağlanmalarıdır. İnsanların əksəriyyəti adət-ənənələrlə, yanlış məlumatlarla və keçmişdən qalma yalan və yanlışlarla birləşdirdikləri dinlərini özünəməxsus şəkildə tətbiq edirlər.

Bu dinin qanun və qadağaları, əxlaq anlayışı tamamilə fərqlidir. Bu dinin Allah'ın vəhyində və Peyğəmbərimizin (s.ə.v.) sünnəsində olmayan bir çox qanunları var. Bu din məfhumunun ən təhlükəli nəticəsi isə insanlar arasında haqq dinə qarşı ön mühakimə yaratmasıdır.

İnsanların əksəriyyəti ön mühakimələr və yanlış məlumatlar nəticəsində əsl dindən uzaqlaşırlar. Hətta çox vaxt Allah'ın adının çəkilməsinə, ayələrinin oxunmasına belə dözə bilmirlər. Gündəlik həyatlarında hadisələrə bitərəf yanaşan, araşdıran və oxuyub-öyrənməyin tərəfdarı olan böyük dünyagörüşlü insanlar belə, dindən bəhs ediləndə çox sabit fikirli və ön mühakiməli davranırlar. Üstəlik, bu davranışlarının səbəbini izah etmək üçün bəhanə də gətirə bilmirlər.

Demaqoqluq və məntiqsiz sözlərlə bu düşüncələrini müdafiə etməyə çalışırlar. Lakin bu insanların Allah'ın ayələrindən, Quran əxlaqından qaçmalarının bir neçə səbəbi var.

İnsanlar Quranda bildirilən həqiqətlərdən aşağıda göstərilən səbəblərə görə qaçırlar:

## Atalarının dininə kor-koranə bağlandıqlarından…

Bəzi insanlar həmişə dəyişikliklərə və yeni fikirlərə qarşı mühafizəkar davranmışlar. Onlar elmdən təhsilə, iqtisadiyyatdan ədalət sisteminə qədər bir çox mövzuda öz təsdiqini tapmış mövzuların dəyişdirilməsinə qarşı çıxmış, ancaq qarşı çıxarkən müdafiə etdikləri mövzular doğru olmamışdır. Çox vaxt vərdişlər, adət-ənənələr ölçü götürülmüşdür. Bu dünyagörüşü ilə Allah'ın vəhyini insanlara bildirən elçilərlə də qarşılaşmışlar. Öz batil dinlərini müdafiə edən insanlar tarix boyu hər elçiyə - hz. Muhəmmədə (s.ə.v), hz. İsaya, hz. Şüeybə, hz. Musaya, hz. Nuha, hz. Huda və digərlərinə qarşı çıxmış, batil inanclarından dönməyəcəklərini söyləmişlər.

Allah'ın bizə "atalarının dininə bağlılıq" olaraq bildirdiyi bu dünyagörüşünün nəticəsi insanların keçmişdəki atalarından qalan həyat və əxlaq formasını nümunə götürmələri və bunu davam etdirmələridir. Bu insanların ən böyük səhvi isə atalarının mirasına bağlı qalmalarıdır.

Quranda elçilərin təbliğləri və qövmlərinin onlara verdikləri ca-

vablarla bağlı ətraflı məlumat verilir. Elçilərin Allah'a iman gətirmək üçün dəvətinə bu insanlar: **"...Biz atalarımızı bu yolda gördük və biz də onların yolunu tutub gedəcəyik!** (Zuxruf surəsi, 23)" -deyə cavab vermişlər.

Həqiqətən də, inkarçıların yolu atalarının yolu, oxuduqları isə atalarının əsərləridir. O yoldan başqa yolla getməz, o kitabdan başqa kitab oxumazlar. Atalarının doğru yolda olduqlarına inanır, onların həyatlarını özlərinə nümunə götürür, dedikləri hər sözün onlara həyat verdiyini düşünürlər. Bu bağlılıq o qədər güclüdür ki, bu yolun yanlış yol olduğunu və keçmişdəki atalarının bir çox səhv və nöqsanlarının olduğunu onlara göstərməyə çalışan insanları özlərinin ən böyük düşməni hesab edirlər. Ən böyük qorxuları da atalarından miras aldıqları bu dinlərindən döndərilməkdir.

Keçmiş qövmlərin elçiləri günahlandırmalarının səbəbi **"Onlar dedilər: "Gəlmisiniz ki, bizi atalarımızın tutduğu yoldan döndərəsiniz və yer üzündə böyüklük etmək ikinizə qalsın? Biz sizə iman gətirən deyilik.** (Yunis surəsi, 78)" ayəsində bildirilmişdir.

Ayələrdə də bildirildiyi kimi, insanlar doğrunu araşdırmadan, vicdanlı şəkildə düşünmədən, sadəcə o formada gördükləri üçün atalarının dinini yaşayır, həqiqətlərə var gücləri ilə qarşı çıxırlar.

Allah inkar edənlərin bu hərəkətini **"...Bəs ataları bir şey anlamayıb doğru yola yönəlməyiblərsə necə?** (Bəqərə surəsi, 170)" ayəsi ilə bizə bildirmişdir.

Ancaq onlar dinlərinə bağlı olduqları üçün heç kimin atalarından daha ağıllı ola bildiyini ehtimal etməz, doğrunu eşitmək istəməz, elçinin dəvətinə qarşı qulaqlarını tıxayar, üz çevirərlər. Bu davranışlarının səbəbini isə izah edə bilməzlər. Çünki elçinin onları dəvət etdiyi şey Allah'ın sözü olan Qurandır. Ayədə bu şəkildə bildirilir:

**(Peyğəmbər) dedi: "Əgər sizə atalarınızın tutduğu o yoldan daha doğrusunu göstərsəm necə?" Onlar dedilər:**

**"Biz sizinlə göndərilənləri inkar edirik". (Zuxruf surəsi, 24)**

İnsanlar məhz atalarının dininə kor-koranə bağlandıqları üçün Quran həqiqətlərindən qaçır, ayələrdəki hökmləri görməməzliyə vurur və Allah'ın vəhyini qulaqardına vururlar. Dünya həyatının nə qədər qısa olduğunu, bir neçə on ildən sonra ölüb və bir bezə sarılıb torpağın altına atılacaqlarını və Allah qatında bütün etdiklərinin hesabını verəcəklərini ağıllarına belə gətirməzlər.

Allah Qurandakı **"Bəli, Biz onlara və atalarına ömürləri qədər xoş güzəran verdik...** (Ənbiya surəsi, 44)" ayəsi ilə inkarçıların yanılmasına işarə edir. Ölüm həqiqətindən qaçan bu insanlar Allah'ın ayələrindən üz çevirdikləri üçün böyük iflasa uğrayacaqlar. Onlar böyük qəflət içindədirlər.

Quranda bu mövzuda verilən nümunələrdən biri də hz. İbrahimin qövmüdür. Onlar atalarının yolu ilə gedərək bütlərə sitayiş edirdilər. Bu batil dinə bağlı olduqlarına görə, hz. İbrahimin haqq dinə çağırışını rədd etmişdilər. Ayələrdə hz. İbrahimin atasına və qövmünə **"... Bir zaman o, öz atasına və tayfasına: "Bu nə heykəllərdir ki, siz onlara sitayiş edirsiniz?"– demişdi** (Ənbiya surəsi, 52)" ayəsindəki kimi səsləndiyi bildirilir. Bundan sonra aralarında olan söhbətlər Quranda belə xəbər verilir:

**Onlar: "Biz atalarımızı onlara ibadət edən görmüşük!"– demişdilər. (İbrahim) demişdi: "Doğrusu, siz də, atalarınız da, açıq-aydın bir azğınlıq içindəsiniz". Onlar: "Sən bizə haqq gətirmisən, yoxsa oyunbazlardansan?"– demişdilər. (İbrahim) demişdi: "Xeyr, sizin Rəbbiniz yaratdığı göylərin də, yerin də Rəbbidir. Mən də buna şahidlik edənlərdənəm". (Ənbiya surəsi, 53-56)**

Ayənin davamında qövmün hz. İbrahimin hər çağırışını inkar etdiyindən bəhs edilir. Aralarındakı söhbətdən sonra hz. İbrahim bütlərə

hiylə quracağını söyləyir. Onlar getdikdən sonra “böyüyündən” başqa bütün bütləri sındırır. Sonra inkar edən qövm ilə İbrahim peyğəmbərin arasında olan söhbət Quranda belə xəbər verilir:

**Onlar dedilər: “Tanrılarımızı kim bu kökə salıb? Şübhəsiz ki, o, zalımlardandır!” (Bəziləri:) “İbrahim deyilən bir gəncin onları pislədiyini eşitmişik”– dedilər. (Digərləri də:) “Onu camaatın gözü qabağına gətirin ki, şahidlik etsinlər”– dedilər. Onlar dedilər: “Tanrılarımızı sənmi bu kökə saldın, ey İbrahim?” (İbrahim) dedi: “Xeyr, bunu onların bu böyüyü etmiş olar. Əgər danışa bilirlərsə, özlərindən soruşun”. (Ənbiya surəsi, 59-63)**

Hz. İbrahimin bu dəvəti və ağıllı üsulu sayəsində qövmü əvvəl tərəddüd etsə də, sonradan vicdanla düşünərək zalımlıq etdiyinin fərqinə varır. Ancaq sonra yenidən üz çevirir. Onların bu əxlaqı ayələrdə belə xəbər verilir:

**“… Sonra yenə öz bildikləri (batil əqidələrinə) qayıdıb dedilər: “Axı sən bilirsən ki, bunlar danışmırlar”. (İbrahim) dedi: “Elə isə Allah’ı qoyub sizə heç bir fayda və zərər verə bilməyən (bütlərəmi) tapınırsınız? Tfu sizə də, Allah’dan başqa tapındıqlarınıza da! Doğurdandamı, siz dərk etmirsiniz?” (Ənbiya surəsi, 65-67)**

Bundan sonra hz. İbrahimi öldürməyə, yandırmağa cəhd edirlər, lakin Allah onların bu tələlərini pozur. Yuxarıdakı ayələrdən də göründüyü kimi, qövmün etdiyi şeyin ağıllı və məntiqli olması vacib deyil. Əslində, onlar doğrunu axtarmaq da istəmirlər. Onların etdikləri yeganə şey doğru və ya yanlış olmasından asılı olmayaraq, atalarının yolu ilə getməkdir. Bundan başqa heç nə istəmirlər. Çünki bu insanlar ağıl və vicdanlarını dinləmirlər. Vicdanla düşünsələr, həqiqəti görə bilərlər. İradə göstərərək bunu həyata keçirməyin yerinə onlara öyrədilənlərlə kifayətlənirlər. Əksəriyyətin yolu ilə getmək öyrədilən şeylərin doğru və ya yanlış olduğunu ayırd etmədən kor-

koranə həyata keçirmək deməkdir. Bu isə vicdanın korlanması və iradəsizliyin nəticəsidir.

Lakin bu qədər dəyər verib hər şeydən üstün tutan atalarını qiyamət günündə yanlarında görməyəcəklər. Dünyada insanları Allah'ın yolundan uzaqlaşdıran, şeytanın yoluna çağıranlar hesab günü onları tək qoyacaqlar. Ayələrdə bu insanların o gün keçirəcəkləri peşmançılıq hissi belə tərif edilir:

**Üzləri odda o yan-bu yana döndəriləcəyi gün onlar deyəcəklər: "Kaş biz Allah'a ibadət edəydik, Onun Elçisinə müti olaydıq!" Onlar deyəcəklər: "Ey Rəbbimiz! Biz başçılarımıza və böyüklərimizə itaət etdik, onlar da bizi haqq yoldan azdırdılar. Ey Rəbbimiz! Onları ikiqat əziyyətə sal və onları müdhiş bir lənətə məruz qoy!" (Əhzab surəsi, 66-68)**

## Dünya həyatına çox bağlandıqlarından…

İnsanların Quranda bildirilən həqiqətlərdən qaçmalarının birinci səbəbi dünya həyatına çox bağlanmaları və bu həyatlarının heç bitməyəcəyini düşünmələridir. Bu səbəbdən, dünya həyatının nə qədər qısa olduğunu anlamazlar. Hər insanın heç gözləmədiyi bir anda ölüm mələkləri ilə qarşılaşacağını, sonra yerin altına qoyularaq üzərinə torpaq atılacağını, o an özləri ilə heç nə götürə bilməyəcəklərini də düşünməzlər.

O gün heç bir insana nə mal-mülkü, nə də dəyər verdiyi yaxınları, dostları kömək etməyəcək. O gün insan Allah'ın qarşısına tək çıxanda, bütün əməlləri önünə gətiriləcək. Məhz o an dünya həyatının keçici bir imtahan yeri olduğunu bütün insanlar dərk edəcəklər. Amma o gün peşman olmaq üçün gec olacaq.

Bu həqiqətləri düşünməyən insanların dinə və dünya həyatına fərqli baxış prizmaları var. Həyatın təhsil-evlilik-iş üçbucağı daxilində çabalamadan ibarət olduğunu, bunlardan başqa bir həyatın

mümkün olmadığını düşünürlər. Bu səbəbdən, zehinlərini sadəcə bu üç mövzu məşğul edir. Hadisələri bu prizmaya əsasən dəyərləndirirlər, qərarlarını buna görə verir, buna uyğun qururlar. Üzərində düşünülməli mövzuları da bu prizmaya görə sıralayırlar: necə pul qazanacaqları, gələcəklərinin necə olacağı, iş həyatında necə müvəffəqiyyət qazanacaqları, evlilik həyatları, təhsilləri, karyeraları… Əlbəttə, bunların hamısı vacibdir. Ancaq bu insanlar böyük səhv edirlər. Onlar sadəcə dünya həyatı ilə əlaqədar mövzuları düşünür və həyatın ən böyük həqiqəti olan ölümü düşünməkdən qaçırlar, çünki bu insanlara ayədə xəbər verildiyi kimi **"…şeytan (günah işləri) gözəl göstərdi və onlara uzun ömür vəd etdi. (Muhəmməd surəsi, 25)"** Dünya həyatının bitməsini istəməməklərinin səbəbi də məhz planları, gələcəkdən gözlədikləri və illərə böldükləri hədəfləridir. Axirət gününə hazırlıq görməyi isə düşünmək istəmirlər.

Quran oxumaqdan və Quranda bildirilən həqiqətləri düşünməkdən qaçdıqları üçün başqa insanlara bu həqiqəti izah etməyə imkan verməzlər. Halbuki, Quranı oxusalar və ya onlara deyilənlərə qulaq assalar, Allah'ın ayələrdə bildirdiyi həqiqətlərdən xəbərdar olar, Allah'ın razı olduğu şəkildə yaşamağın vacibliyini anlayarlar. Beləliklə, özləri və yaxınları üçün yararlı olan sonsuz cəhənnəm əzabından qurtularlar. Bunu qavramaq və ümid etmək hər insan üçün çox vacibdir, çünki əsl yurd sonsuz axirət həyatıdır.

Allah "Ali-İmran" surəsində belə bildirir:

**Qadınların, uşaqların, yığın-yığın qızıl-gümüşün, yaxşı cins atların, mal-qaranın və əkin yerlərinin verdiyi zövqlərə olan istək insanların gözünə gözəl göstərilmişdir. Bunlar, dünya həyatının keçici zövqüdür, gözəl qayıdış yeri isə Allah dərgahındadır. De: "Sizə bunlardan daha yaxşısı barədə xəbər verimmi? Allah'dan qorxanlar üçün Rəbbi yanında altından çaylar axan, içində əbədi qalacaqları cənnət bağları, pak zövcələr və Allah'ın rizası vardır". Allah qullarını görür". (Ali-İmran surəsi, 14-15)**

Yuxarıda da qeyd etdiyimiz kimi, insanlar öz anlayışlarına əsasən həyat tərzi keçirirlər. Bu həyat tərzinin, xüsusilə də dünyaya baxışlarının, başqa sözlə desək, həyat fəlsəfələrinin dəyişməsini istəməzlər. Tarix boyu Qurana və elçilərə qarşı göstərilən təzyiq və inkarın səbəbi də budur. Çünki mənimsədikləri fəlsəfənin dəyişməsi insanın həyat tərzini tamamilə dəyişdirəcəkdir. Quranda qövmünün hz. Şüeybə verdiyi cavab buna nümunədir. Bu qissədə də izah edildiyi kimi, qövmünün qorxduğu şey həyatlarını və mallarını tərk etmələridir. Bu vəziyyət ayələrdə belə xəbər verilir:

**Onlar dedilər: "Ey Şüeyb! Atalarımızın ibadət etdikləri (tanrılardan), yaxud mallarımızı istədiyimiz kimi istifadə etməkdən vaz keçməyimizi sənə namazınmı əmr edir? Doğrudan da, sən yumşaq xasiyyətlisən, ağıllısan". (Hud surəsi, 87)**

Hz. Şüeybin qövmünə cavabı bu şəkildədir:

**O dedi: "Ey qövmüm! Bir deyin görək, əgər mən Rəbbimdən açıq-aydın bir dəlilə istinad edirəmsə, O da Öz tərəfindən mənə gözəl bir ruzi veribsə, onda necə olsun?" Sizə qadağan etdiyim şeyləri etməklə sizin əleyhinizə çıxmaq istəmirəm. Mən ancaq bacardığım qədər islah etmək istəyirəm. Mən ancaq Allah'ın sayəsində uğur qazanıram. Mən yalnız Ona təvəkkül edir və yalnız Ona üz tuturam. (Hud surəsi, 88)**

Bu insanlar yaşadıqları batil həyatlarından razıdırlar. Bu həyat tərzinin və vərdiş etdikləri sistemin dəyişməsini əsla istəmirlər. Allah'ın **"Şübhəsiz ki, Bizimlə qarşılaşacaqlarına ümid etməyənlər, dünya həyatından razı qalıb onunla rahatlıq tapanlar və ayələrimizdən xəbərsiz olanların – məhz onların qazandıqları (günahlara) görə sığınacaqları yer oddur. (Yunis surəsi, 7-8)"** ayələri ilə bizə tanıtdığı bu insanlar doğru yolda olduqlarını zənn edirlər.

Allah'ın zikrindən üz çevirmişlər və **"Sən də Bizim Zikrimizi rədd edib dünya həyatından başqa bir şey istəməyənlərdən üzünü yana çevir! (Nəcm surəsi, 29)"** ayəsində bildirildiyi kimi, istədikləri şeyə - dünya həyatına qovuşmuşlar. Ancaq dünya həyatı keçici zövqdən başqa bir şey deyil.

Quranda **"Kafirlər mütləq müsəlman olmalarını arzulayacaqlar. Qoy onlar yeyib-içsinlər, əylənsinlər və xam xəyallar onların başlarını qatsın. Tezliklə biləcəklər. (Hicr surəsi, 2-3)"** ayələrində bildirildiyi kimi, bu dünya həyatındakı əyləncə o insanlara heç nə verməyəcək. Allah dünya həyatına aldanaraq din əxlaqını unudanların hesab günü peşman olacaqlarını belə bildirmişdir:

> **O kəslərə ki, dinlərini əyləncə və oyun etmişdilər və dünya həyatı onları aldatmışdı. Onlar bu günləri ilə qarşılaşmağı unutduqları və ayələrimizi inkar etdikləri kimi, Biz də onları bu gün unudarıq. (Əraf surəsi, 51)**

## Çox qürurlu olduqlarından....

Bəzi insanların Quranda bildirilən həqiqətlərdən qaçmalarının səbəbi isə lovğalanma hissi, yəni qürurlarıdır. Öz fikirlərinin, inanclarının, həyat tərzlərinin doğruluğuna və qüsursuzluğuna o qədər inanırlar ki, bunlardan daha doğru fikrin, inancın varlığını əsla qəbul etmək istəmirlər. Bunu düşünmək belə onları narahat edir. Allah'ın **"Ona: "Allah'dan qorx!"– deyildikdə, lovğalıq onu daha da günaha sürükləyər. Ona cəhənnəm kifayət edər. Ora nə pis yataqdır**! (Bəqərə surəsi, 206)" ayəsində də bildirildiyi kimi, insanı inkara sürükləyən məhz qürurudur.

Belə insanlar Qurana dəvət edildikdə onu inkar edirlər. Çünki bu haqq dinə tabe olmaq, indiyə qədər batil inanca sahib olmağı qəbul etmək demək və həmçinin səhv yolda olduqlarını, doğru yolda olmayan insanları öndər seçdiklərini və ya yazdıqları, oxuduqları, dəyər verdikləri hər şeyin səhv olduğunu öyrənmələri deməkdir. Bu

da onlar üçün böyük fəlakətdir. Buna görə də, dəlillə isbat edilsə belə, fikirlərindən əsla dönmək istəməzlər. Çünki qürurları buna izn verməz. Ayədə bildirildiyi kimi, qürurları onları günaha sürükləyər.

Əslində, Quranın yeganə həqiqət olduğunu dərk etdikdən sonra yanlış yolda olduğunu dərhal qəbul etməli, vicdanlarının səsini dinləməli və tövbə edib yeni həyata başlamalıdırlar. Asan olan və Allah'ın razı olduğu əxlaq məhz budur. Bunun əksi həm dünyada, həm də axirətdə sıxıntı içində yaşamaqdır. Allah inkar edənlərin əhvalını **"Buna qəti inandıqları halda, haqsızcasına və təkəbbürlə onları inkar etdilər. Gör fəsad törədənlərin aqibəti necə oldu!** (Nəml surəsi, 14)" ayəsi ilə bizə bildirir. Qürurları bu insanları doğru yoldan sapdırır və böyük ziyana uğradır.

Din əxlaqından uzaq olan insanların qürurlanmasının nəticəsi "Həcc" surəsində bu şəkildə bildirilir:

> **İnsanlar içərisində eləsi də vardır ki, heç bir biliyi, doğru yolu göstərən rəhbəri və nur saçan bir kitabı olmadan Allah haqqında mübahisə edir. O, başını o yan bu yana çevirir ki, (insanları) Allah'ın yolundan sapdırsın. O, bu dünyada rüsvay olacaq, Qiyamət günü isə Biz ona cəhənnəm məşəqqətini nəsib edəcəyik. (Ona deyiləcəkdir:) "Bu, əvvəllər öz törətdiyin əməllərin əvəzidir, yoxsa Allah qullarına əsla zülm edən deyildir". (Həcc surəsi, 8-10)**

Ayələrdə qeyd edildiyi kimi, inkar edənlər qürurları ucbatından digər insanları da Allah'ın yolundan döndərmək istəyirlər. Buna görə, məlumatları olmasa da, mübahisə edirlər. Quranı oxumasalar da, Quran əxlaqını bilməsələr də, Allah haqqında mübahisə edir və qürurla üstün gəlməyə çalışırlar. Ancaq axirət günündə bu qürurlu davranışları insanlara heç bir fayda verməyəcək. Əksinə, böyük peşmançılığa səbəb olacaq və ayədə bildirildiyi kimi: **"Kaş ki, bizi qaytaraydılar! Onda biz Rəbbimizin ayələrini yalan saymayıb möminlərdən olardıq. (Ənam surəsi, 27)"** -deyəcəklər.

**Yanlış və sabit fikirləri səbəbindən…**

İnkarçıların Quranı dinləməməklərinin, ondan qaçmalarının səbəblərindən biri də yanlış və sabit fikirli olmalarıdır. Yuxarıda da bildirdiyimiz kimi, atalarından öyrəndikləri məlumatlar və yanlış adət-ənənələr, cəmiyyətdə gördükləri həyat və düşüncə tərzi bu insanların həyata baxışında mühüm rol oynamışdır. Kiçik dəyişiklik və ya yenilik fikri onların etirazına səbəb olur. Hətta yenilik, dəyişiklik və haqq gətirən insanlara qarşı təcavüzkar və qəzəbli olmalarının səbəbi də bu yanlış və sabit fikirləridir.

Bu yanlış fikir bir pərdə kimi insanların bir-birlərini dinləmələrinin və görmələrinin qarşısını alır. Allah'a iman gətirməyə dəvət edilən belə insanların cavabı "Fussilət" surəsində belə bildirilir:

**Ayələri Quran kimi ərəbcə müfəssəl izah edilmiş, bilən camaat üçün bir Kitabdır. O, həm müjdə verən, həm də xəbərdar edəndir. Lakin onların çoxu üz çevirib söz eşitməzlər. Onlar deyirlər: "Sənin bizi dəvət etdiyinə qarşı qəlbimiz qapalıdır, qulaqlarımızda tıxac vardır, bizimlə sənin arana pərdə çəkilmişdir. Sən işində ol, biz də öz işimizdə olacağıq!" (Fussilət surəsi, 3-5)**

Əslində, insan Qurana dəvət edilərkən batil, səhv düşüncələrindən arınma fürsəti əldə edir. Belə bir vəziyyətdə bu dəvəti edəni dinləmək, dəvət etdiyi haqq kitabı oxumaq və düşünmək daha doğru olar. Vicdanlı insan doğrunu gördüyü andan öz fikirlərini tərk edər.

Yanlış və sabit fikirli olmaq insanı ağıllı və məntiqli düşünməyə qoymur. Üstəlik, burada bəhs etdiyimiz mövzu hər insanın borcudur. Quran hər insanın qurtulmaq üçün təslim olacağı yeganə kitabdır. Hər hansı bir mövzunu dinləmədən, oxumadan, düşünüb qiymətləndirmədən rədd etmək ancaq sabit fikirli, dar düşüncəli və yeniliyə

bağlı olan insanların davranışıdır. Amma Allah'ın insanlara göndərdiyi təhrif edilməmiş son haqq kitab olan Quranı dinləməmək, ayələri oxumamaq sadaladığımızdan daha ciddidir. İnsanın hər hansı bir həyati mövzuda yanlış fikirdə olması bəlkə ona böyük zərər verməz, amma Allah'ın əmrlərini dinləməmək mövzusunda sabit fikirlilik insanı cəhənnəmə aparan çox ciddi təhlükədir. Hər bir insan belə vəziyyətə düşməkdən çəkinməlidir.

Bundan başqa, insanın fitrətində daim mükəmməlik axtarmaq xüsusiyyəti var. Daha gözəl fikir, daha gözəl düşüncə, daha yaxşı baxış yönü insanı həmişə özünə cəlb edir. Ancaq dinsizlik insanın yaradılışına uyğun olmayan sabit fikirliliyi məqbul göstərir və insanın köhnəlmiş fikirlərinə bağlı qalmasına səbəb olur. Hadisələri olduğu kimi mühakimə etməyə izn vermir, köklü dəyişikliklər etməyə qoymur.

Bu dünyagörüşünü metroların, təyyarələrin, gəmilərin, inkişaf etmiş nəqliyyat vasitələrinin olduğu halda, başqa qitəyə at arabası ilə getmək istəyən insanın vəziyyətinə bənzətmək olar. Necə ki, bu insanın inadkar davranışı onu texnologiyanın nemətlərindən necə məhrum edirsə, eləcə də yanlış və sabit fikirli insan bütün çətinlikləri özü çəkir, gözəllik və rahatlıqdan məhrum olur.

İnsanların yanlış və sabit düşüncələri sadəcə dinə baxışları ilə məhdudlaşmır, bütün həyat tərzlərində özünü göstərir. Evlərinin dekorasiyasında dəyişiklik etməmək, yeni texnoloji məhsullara qarşı ön mühakiməli yanaşaraq bu məhsullardan istifadə etməmək, eyni cür geyinmək, eyni yeməkləri yemək, eyni cür əylənmək, eyni zarafatları etmək bu yanlışlıqlardan sadəcə bir neçəsidir. Bu sabit fikirlilik düşüncə formalarını da öz təsiri altına alır. Buna görə, səhv olsa da, eyni fikri müdafiə edir, eyni doğrulara və yanlışlara sahib olurlar.

Bu qaydalar ucbatından müstəqil və rahat düşünə bilmir, yeni fikirləri müdafiə edən kitabları oxumur, yeniliklərdən zövq almır, həyatlarını yaxşılaşdırmağa cəhd etmirlər.

Buna misal olaraq materialist və kommunist fəlsəfəni mənimsəyən insanları göstərə bilərik. Onları dərhal tanımaq mümkündür. Geyim və saç formaları, danışıq üslubu illərdən bəri dəyişmir. Əsrlər keçsə də, keçmiş fikirləri müdafiə edir, bu fikirləri doğru kimi göstərir, öz təcrübələrini hər yerdə nümunə göstərirlər.

Karl Marksın "Kapital"ını, Çarlz Darvinin "Növlərin mənşəyi"ni və ya Maonun "Qızıl kitab"ını illərlə özlərinin stolüstü kitabı edir, bu kitabları təkrar-təkrar oxuyur, altından xətt çəkir, əzbərləyirlər. Bu kitablardakı "dövriyyədən çıxmış" məlumatları israrla müdafiə edir, çatışmazlıq və ya səhv olma ehtimalını belə qəbul etmirlər. Dünyada baş verən hadisələri və elmi inkişafı izləmədiklərindən bu kitablarda olan məlumatları doğru və elmi zənn edirlər. Böyük səbirlə Marksın XIX yüzilliyin qaranlıq səhifələrində qalmış fikirlərinin və utopiyasının həyata keçməsini gözləyirlər. XX əsrin əvvəllərində elmi tərəqqi qarşısında yox olan Darvinin iddialarının doğru olduğunu zənn edirlər. Sadəcə özləri kimi düşünənlərlə görüşür, illərlə eyni qəzeti oxuyur, eyni filmlərə baxırlar. Ən çox dedikləri isə "mən dəyişmədim, bundan 40 il əvvəl nəyi müdafiə edirdimsə, indi də onu müdafiə edirəm" sözüdür. Ancaq unutmaq olmaz ki, bu söz ancaq mütləq doğruları müdafiə edən insan tərəfindən söyləndiyi zaman məqbul sayılır.

Dəyişikliyə, yeniliyə qarşı çıxmaq, müxtəlif fikirləri dinləmədən rədd etmək bu insanların qürur hesab etdikləri anlayışdır. Öndər hesab etdikləri Marks, Mao və ya Darvin kimilərin dinə qarşı sözlərinə o qədər inanırlar ki, bu sözdən dönməmək üçün Quran və Quran əxlaqından bəhs edən kitabları oxumaqdan çəkinirlər. Belə kitabları

oxumağın onlara zərər verəcəyini düşünürlər.

Halbuki, Quran əxlaqına dəvət olunmaları bu insanların keçmiş təcrübələrindən dərs almaları, səhvlərindən nəticə çıxarmaları, daha gözəlini, daha yaxşını axtarmaları sabit fikirlərindən qurtulmaları üçün fürsətdir. Ancaq yanlış fikirləri ucbatından onlara məsləhət verən insanları aşağı səviyyəli görür, səmimi, xoş niyyətli təklifi düşünmədən rədd edir, kor-koranə bağlandıqları inanclarından əsla vaz keçmirlər.

Niyə hər cür yeni məlumata, yeni fikrə, yeni anlayışa və ya elmi həqiqətə qarşı çıxan bu insanlar yanlış və sabit fikirlərindən dönmürlər?

Məhz burada şeytanın insanlar üzərindəki təsiri qarşımıza çıxır. Şeytan inkar edənlərə gördükləri işləri gözəl göstərib, onları doğru yolda olduqlarına inandırmışdır. Vicdanlarının səsini dinləməyənlər və Qurandan qaçan bu insanlar şeytana aldanmışlar. Ayədə bu şəkildə bildirilmişdir:

**... Şeytan onlara etdikləri əməlləri gözəl göstərib onları haqq yoldan çıxartdı. Halbuki, onlar gözüaçıq adamlar idilər. (Ənkəbut surəsi, 38)**

Doğruları görən, mənfi cəhətlərinin fərqinə varan bu insanlar şeytanın təsiri ilə sonradan görməyən, həqiqətlərə qulaq tıxayan insanlara çevrilirlər. Həqiqətən də, bu cür insanla danışmaq, ona xatırlatmaq və ya onunla fikir mübadiləsi aparmaq mümkün deyil. Çünki onlar öz fikirlərini paylaşmayan insanları dinləməyə, onların sözlərinə qulaq asmağa və onların tənqidinə dözə bilməzlər.

Ağıllı, vicdanlı, düşünməyi bacaran bir insan rahat şəkildə qüsurlarını görə bilir, lakin sabit fikirli insan isə özünü kənardan izləyib dəyər verə bilmir. Bu insanların ən vacib xüsusiyyəti sabit fikirləri

ilə öyünmələri, illərlə dəyişməyən düşüncə sistemləri və həyat tərzləri ilə iftixar hissi keçirmələridir.

Allah'ın **"Şübhəsiz ki, şeytanlar onları haqq yoldan sapdıracaq, onlar isə özlərinin haqq yolda olduqlarını güman edəcəklər.** (Zuxruf surəsi, 37)" ayəsi ilə bildirdiyi kimi, bu insanlar doğru yolda olduqlarını zənn edirlər. Amma heç də düşündükləri kimi deyil. Hesab günü düşünmək, xatırlamaq və peşman olmaq haqqdan üz çevirən insanlara bir fayda verməyəcək. Ayədə bu şəkildə bildirilir:

> **Və o gün cəhənnəm gətiriləcək. O gün insan xatırlayacaqdır. Lakin xatırlamanın ona nə faydası? (Fəcr surəsi, 23)**

# QURANI DİNLƏMƏYƏNLƏRİN GİZLİ LİDERİ: ŞEYTAN

Kitabın birinci hissəsində insanların Quranı dinləməmə və həqiqətlərdən qaçma səbəblərini ayələrlə izah etdik. İnsanları Qurandakı həqiqətlərdən qaçmağa və inkar etməyə təşviq edən, onları yanlış yola yönəldən və onlara təsir etməyə çalışan insanlar var. Bu insanlar şeytanın təsiri altında olan cəmiyyətlərə liderlik edən insanlardır. Məqsədləri dinsizliyi yaymaq, Quran əxlaqının tətbiq olunmasının qarşısını almaqdır.

Bu insanların sayca çox olmalarına ehtiyac yoxdur. Cəmiyyətdə maddi və mənəvi gücə malik olan, iqtisadiyyatı əllərində tutan və ya cəmiyyətin düşüncə tərzini yönləndirən vasitələrə sahib olmaları kifayətdir. Bununla kütləni istədikləri yönə istiqamətləndirirlər. Bu vasitələr sayəsində insanları istədikləri cür düşündürüb danışdıra bilirlər.

İnkarçıların öndərlərinin siyasəti xalq arasında təslimiyyətlə qarşılanır. Bu insanların əsl niyyətini bilməyən, özünü dünya həyatına qapdıran insanlar məqsədlərinin nə olduğunu və nə cür həyatın içinə düşdüklərini bilmədən onların göstərdikləri yolla gedirlər. Onların ağzından çıxan hər sözü dərhal qəbul edir və həyatlarını buna əsasən uyğunlaşdırırlar. Onlar bütün vasitələrdən öz düşüncələrini yeritmək üçün istifadə etmiş, istədikləri şəkildə təhsil verilməsini təmin etmiş,

istədikləri kitabların oxunmasına icazə vermiş, istəmədiklərini kütləvi şəkildə məhv etmişlər. Müxtəlif düşüncələrin olmasına izn verməmiş, bütün zidd düşüncələri vəhşicəsinə ortadan qaldırmışlar. Dinsizliyi insanlar arasında yaymaq üçün hər cür üsuldan istifadə etmiş, kilsələri, məscidləri dağıtmış, dini təhsili aradan qaldırmışlar. Bu insanların hərəkətləri Quranda bildirildiyi kimi, insanları oda çağırmaq olmuşdur. Allah "Qəsəs" surəsində bu cür davranan insanların vəziyyətini belə bildirir:

**Biz onları oda çağıran rəhbərlər etdik. Qiyamət günü onlara kömək edilməyəcəkdir. Bu dünyada onları lənətə düçar etdik. Qiyamət günü isə onlar qovulmuş kimsələrdən olacaqlar. (Qəsəs surəsi, 41-42)**

Bu inkarçı idarəçilərin güclü təlqinləri sayəsində düşünməyən, görməyən, danışmayan ağılsız insanlar ortaya çıxır. Bu insanlar onları yaradan və həyat verən Allah'ı unudaraq özlərinə rəhbər seçdikləri insanın sözünə görə hərəkət edir, onun razı olmadığı hərəkətlərdən çəkinirlər. Bu insanların rəhbərlərinin izni olmadan Allah'a iman gətirməyə dəvət edənləri dinləmələri, onların kitablarını oxumaları və Allah'a iman gətirmələri mümkün deyil. Quranda bildirilən peyğəmbərlərin həyatlarında da bunun nümunələrini görmək mümkündür. Çünki hər qövmün içində insanların elçilərə iman gətirmələrinin qarşısını almağa çalışan öndərlər olmuşdur. Məsələn, hz. Musa fironun qövmünü Allah'ın ayələrinə iman gətirmək üçün dəvət edəndə qövmü fironun güc sahibi olduğundan onun öndərliyini qəbul etmiş və onun verdiyi əmrlərə düşünmədən tabe olmuşlar. Ancaq ayələrdə fironun insanları oda apardığına belə işarə edilmişdir:

**Biz Musanı möcüzlərimizlə və aydın bir dəlillə elçi göndərdik – firon və onun əyanlarına. Onlar isə fironun əmrinə tabe oldular. Halbuki, fironun əmri doğru deyildi. Qiyamət günü öz camaatının qabağına düşüb onları oda aparacaq… (Hud surəsi, 96-98)**

Bu liderlər onlardan asılı olan insanların həyatlarını idarə etdikləri kimi, necə düşünəcəklərinə də qərar verirlər. Məsələn, fironun bütün dəlillərə baxmayaraq, Allah'ın varlığını qəbul etməməyi hakim olduğu cəmiyyəti də eyni cəhalətə sürükləmişdir. Bu baxımdan Qurandakı firon nümunəsi inkar edənlərin liderlərinin cəmiyyətə necə təsir etdiyini bir daha sübut edir:

**(Firon) dedi: "Mən sizə izn verməmişdən əvvəl siz ona imanmı gətirdiniz? Şübhəsiz ki, o sizə sehr öyrədən böyüyünüzdür. Tezliklə biləcəksiniz! Mən sizin əllərinizi və ayaqlarınızı çarpaz kəsdirib hamınızı çarmıxa çəkdirəcəyəm". (Şüəra surəsi, 49)**

Ayədən də göründüyü kimi, insanları haqq dinə qarşı çıxaran bu liderlərin ən vacib xüsusiyyətlərindən biri cəmiyyəti qorxudaraq təzyiq göstərməkdir. Bu səbəbdən, firon nümunəsində olduğu kimi, müxtəlif iftiralarla, həbs olunma, xalqın gözündən salma, öldürmə kimi təhdidlərlə insanları qorxudaraq Allah'a iman gətirməyə qoymurlar. Ancaq bir şeyi unudurlar ki, ağıllı və imanlı möminlər nə qədər təzyiq və ya təhdidlə qarşılaşsalar da, Allah'dan başqa heç kimdən və heç nədən qətiyyən qorxmazlar. Çünki iman gətirənlər bilirlər ki, insan yalnız Allah qarşısında məsuliyyət daşıyır və yalnız Allah'ın rizasını qazanmaq üçün yaşamalıdır. Firon qissəsində də gördüyümüz kimi, hz. Musanın gətirdiyi dəlilləri görən sehrbazlar Allah'a olan imanları və səmimiyyətlərinə görə fironun təhdidlərindən qorxmamış və Allah'a iman gətirdiklərini bildirmişlər:

**Sehrbazlar səcdəyə qapandılar. Onlar dedilər: "Aləmlərin Rəbbinə iman gətirdik! Musa və Harunun Rəbbinə!" Firon dedi: "Mən sizə izn verməmişdən əvvəl siz ona iman gətirdiniz? Şübhəsiz ki, bu, şəhərdə qurduğunuz bir hiylədir ki, əhalisini oradan çıxarasınız. Tezliklə biləcəksiniz. Əllərinizi və ayaqlarınızı çarpaz kəsəcək, sonra da hamınızı çarmıxa çəkəcəyəm". Onlar dedilər: "Şübhəsiz ki, biz**

**Rəbbimizə qayıdacağıq. Sən sadəcə, Rəbbimizin möcüzələri bizə gəldikdə onlara iman gətirməyimizə görə bizdən intiqam alırsan. Ey Rəbbimiz! Bizə çoxlu səbir ver və bizi müsəlman olaraq öldür”. (Əraf surəsi, 120-126)**

Allah bir başqa ayədə iman gətirən sehrbazların firona qarşı çıxdıqlarını belə bildirir:

**Onlar dedilər: “Biz heç vaxt səni bizə gələn bu aydın dəlillərdən və bizi yaradandan üstün tutmayacağıq. İndi nə hökm verəcəksənsə ver. Sən ancaq bu dünyada hökm verə bilərsən!” (Taha surəsi, 72)**

Liderlərinə bağlı olduqları üçün ağılla və vicdanla düşünməyən, dolayısilə də Quranı rəhbər etməyənlərin vəziyyəti firon izn verməmdiyi üçün iman gətirməyən cəmiyyətin vəziyyətinə bənzəyir. Bu insanlar Allah’ın varlığından və Ondan başqa heç kimin və ya heç nəyin müstəqil gücü olmayacağından qafil olduqlarından, qorxduqları şeyin nə qədər mənasız olduğunun fərqinə varmazlar. Halbuki, qorxduqları və əmrinə tabe olduqları şəxslər, əslində, heç bir gücə malik olmayan, Allah’ın yaratdığı qədərə tabe olan aciz insanlardır. Məsələn, firon yaşadığı dövrdə xalqına təzyiq göstərən və çox zülm edən bir lider idi. Amma ayələrdə xəbər verildiyi kimi, firon **ancaq bu dünyada hökm verə bilər**. Nə sahib olduğu mal-mülk, nə də qurduğu krallıq onu ölümdən xilas edir. Onun da qısa sürən ömrü ölümlə nəticələnir. Qövmünün Allah’a iman gətirməsinə mane olmaq üçün verdiyi əmrlərdən isə əsər-əlamət qalmamışdır.

Öndərlərinin təlqin və təzyiqlərini bəhanə edərək Quranın əmrlərindən qaçan insanlar Allah’ın hüzurunda olduqları zaman əmrlərinə tabe olduqları bu liderləri yanlarında görməyəcəklər. Hər kəs tək-tənha hesab verəcək və bütün əməlləri önünə gətiriləcək. Dolayısilə, küfrün liderlərinin dünyadakı güc, var-dövlət, ehtişam, iqtidar sahibi görüntüləri yanıldıcıdır. Allah küfrün öndərlərinin hətta öz

nəfslərinə yardım edə bilməyəcəklərini bir Quran ayəsində belə bildirmişdir:

**De: "Sizi gecə də, gündüz də sizi Ər-Rəhmandan müdafiə etməyə qadir olan kimdir?" Lakin onlar öz Rəbbinin nəsihətlərindən üz döndərdilər. Yoxsa onları Bizdən qoruya biləcək tanrılarımı vardır? Onlar heç özlərinə kömək etməyə qadir deyillər. Bizdən də müdafiə oluna bilməzlər. Bəli, Biz onlara və atalarına ömürləri boyunca xoş güzəran verdik. Məgər onlar Bizim gəlib ərazini hər tərəfdən əskiltdiyimizi görmürlərmi? Doğrudanmı onlar qalib gələcəklər?! (Ənbiya surəsi, 42-44)**

Allah'dan başqa varlıqların gücü olduğunu düşünmək, onlara tabe olmaq, bu insanların düşüncə, inanc və əxlaqi dəyərləri yönləndirmələrinə izn vermək, öz düşüncə və inanclarını itirmək böyük ağılsızlıq və qəflətdir. Əslində, bu vəziyyət düşünməyən, iradəsiz və zəif cəmiyyətin psixologiyasından irəli gəlir. Bu insanlar üçün hazır olanı düşünmək, onları tətbiq etmək və heç bir məsuliyyət daşımamaq daha rahatdır. Onlar özlərinin düşünməyini, oxuyub-öyrənməyi, araşdırmağı çətin hesab edirlər. Hətta rəhbər seçdikləri insanlar həyatda olmasa da, onların əsərlərinin oxunması bu insanların dünyagörüşünün formalaşmasına kifayət edir. Bu insanın fikirlərində qeyri-sağlam düşüncə tərzinin olub-olmamağını dəyərləndirmədən dərhal bu fikirləri mənimsəyirlər. Marksın, Maonun, Leninin, Stalinin, Mussolininin, Hitlerin, Darvinin və s. kimi bir çox dinsiz fikri və ya siyasi rəhbərin insanların düşüncələrinə yiyələnmələri bu anlayışa nümunədir.

Bu anlayış səhv olduğu kimi, həm də təhlükəlidir. İnsan məlumatsızlıqdan, vicdanının səsini dinləmədiyindən və başqa səbəblərdən Allah'a iman gətirməyə bilər. Ancaq doğrunu gördüyü andan qəbul etməsi daha ağıllı davranış olardı. Bilə-bilə səhv etmək, inad-

karlıq etmək, doğru olanı tətbiq etməmək böyük ağılsızlıqdır. Əslində, doğrunu tətbiq etmək üstünlük olduğu halda, bunu zəiflik kimi görmək, insanların nə düşünəcəyini hesablamaq və etibarını qorumağa çalışmaq insana həm dünyada, həm də axirətdə zərər verər. Halbuki, bu qərarı vermək və qeyd-şərtsiz Qurana və Peyğəmbərimizin (s.ə.v) sünnəsinə tabe olmaq vicdanlı və cəsur hərəkətdir. Eyni zamanda, bunu edən insan nə qədər güclü, səmimi və sağlam düşüncəli olduğunu da sübut etmiş olur. Əslində, zəiflik şeytanın təlqinlərinə səssiz qalmaq, şeytana itaət etməkdir.

### Şeytanın firqəsindən olmaq…

İnsanların haqq dinlə gələn elçilərə və ya elçilərin yoluna dəvət edən səmimi müsəlmanlara qarşı inkarçı üslubları həmişə eyni olmuşdur. Qövmün öndərləri elçinin sözünü dinləməyib haqq dinə uymamaq üçün həmişə eyni bəhanələr irəli sürmüş, qaçmaq üçün həmişə eyni üsullardan istifadə etmişlər. Bəs bu bənzərliyin, eyni söz və eyni hərəkətlərlə cavab verməyin səbəbi nədir? Hamısı eyni kitabı oxuyurlar? Yoxsa bu insanlar yaranandan bəri eyni insanın yolu ilə gedirlər?

Bunun səbəbi din əxlaqından uzaq olan insanların həmişə eyni yerdən əmr almaları, eyni öndərin sözünü dinləmələridir. İnsanların Allah'a iman gətirmələrinin, elçilərin sözünə itaət etmələrinin, hidayətə gəlmələrinin, Allah'ın haqq kitabı olan Qurana tabe olmalarının qarşısını alan öndər şeytandır. Əvvəlki hissələrdə insanları inkara təşviq edənlər cəmiyyətin liderləri olduğundan, insanları müxtəlif vasitələrlə təsir altına alıb doğru yoldan azdırdıqlarından bəhs etdik. Ancaq maddi və ya mənəvi güc sahibi olan bu insanlar da, əslində, şeytanın əmr və təlqinləri ilə hərəkət edir, onun sözünü dinləyirlər. Allah **"Onlar Allah'ı qoyub...yalnız üsyankar şeytana sitayiş edirlər.** (Nisa surəsi, 117)" ayəsi ilə insanların şeytanın yolu ilə get-

diklərini, xeyirdən uzaqlaşdıqlarını bildirir. Dolayısilə, şeytan bu insanların öndəri olaraq onları müxtəlif vədlərlə aldadır, onların xalqı aldatdıqları kimi, müxtəlif təlqin və vəsvəsələrlə Allah'ın haqq dinindən uzaqlaşdırır. Halbuki, insanlar şeytanı özlərinə dost tutmaqla böyük əzabla nəticələnən yolu seçmiş olurlar. Quranda bu haqda belə buyurulur:

**Kimin yoldaşı şeytandırsa, necə də pis yoldaşdır o! (Nisa surəsi, 38)**

İnsan şeytanı dost etdiyi zaman onun tövsiyələri, ilhamı və əmrləri ilə hərəkət etməyə başlayır. Bir işə və ya söhbətə başlamazdan, yaxud da qərar verməzdən əvvəl bu saxta dostu ilə danışır. Hər işini şeytanla məsləhətləşir, şeytanla birlikdə planlaşdırır. Allah bir ayəsində belə bildirir:

**İnsanlardan eləsi də var ki, heç nə bilmədiyi halda, Allah haqqında mübahisə edir və hər bir inkarçı şeytana itaət edir. Onun haqqında belə yazılmışdır: kim (şeytanla) dostluq etsə, (şeytan) onu (doğru) yoldan çıxardıb alovlu odun əzabına sürükləyər. (Həcc surəsi, 3-4)**

Ayədə də bildirildiyi kimi, şeytanın dostları Allah'ın dininə qarşı döyüşənlər, mübahisə edənlər və doğru yoldan azanlardır. Bu insanlar şeytanın Allah'ın dininə qarşı apardığı mübarizədə onun yanında olur, onun ordusunun əsgərinə çevrilirlər. Belə insan haqqında Allah ayədə belə buyurur:

**… Kafir öz Rəbbinə qarşı (şeytana) köməkçidir. (Furqan surəsi, 55)**

Şeytan təbəələrinə birinci Allah'ın varlığını, hər yeri əhatə etdiyini və insanların yaradılış səbəbləri unutdurur. Allah, elçiləri və haqq kitabları vasitəsilə insanlara onları yoxdan yaratdığını, yaşatdığını və onlara ruzi verdiyini və gözəl əxlaq göstərdikləri zaman sonsuzadək gözəl həyat vəd etdiyini bildirir. Bu səbəbdən, insanlara

Quranda bildirilən sərhədləri qorumaqla və Ona ibadət etməklə mükəlləf olduğunu xatırladır. Şeytan isə öz firqəsinə etdikləri işlərin, dedikləri sözlərin hesabını verməyəcəklərini, insanın yalnız özünə qarşı məsuliyyət daşıdığını, heç kimin qarşısında məsuliyyət daşımadığını, beləliklə də hər cür azğınlıq etməkdə sərbəst olduğunu təlqin edir. Məsələn, Allah Quranda beş dəfə namaz qılmağı əmr edir. Namaz İslamın əsaslarından biridir. Peyğəmbərimiz (s.ə.v) bir hədisində belə buyurur:

*"İslam (dini) beş (əsas) üzərində qurulmuşdur: Allah'dan başqa heç bir ilah olmadığına, Muhəmmədin (s.ə.v) Allah'ın Rəsulu olduğuna şəhadət etmək, namazı doğru-düzgün qılmaq, zəkatı vermək, beyt (-i şərifi) ziyarət etmək və Ramazan orucunu tutmaqdır". (Riyazüs-salihin, İmam Nəvəvi, Bədir yayınları, səh. 668)*

Şeytan isə namazı çətin göstərərək bəhanələr uydurmağa başlayır. Bəzən işlə bağlı iclas, bəzən avtomobil tıxacı, səyahət, təyyarə və ya avtobusun saatı, bəzən vaxt darlığı kimi vəziyyətlər insanın qarşısına çıxa bilər. Ancaq iman gətirənlər bunları gözəl fürsət kimi dəyərləndirir və namazlarını nə olursa-olsun mütləq vaxtında qılmağa çalışırlar. İman gətirməyən, Quranı rəhbər etməyən insanlar isə şeytanın bu təlqinlərini rahat şəkildə qəbul edirlər. Allah Qurandan üz çevirənlərin vəziyyətini bir ayəsində belə təsvir edir:

**Onlara ayələrimizi verdiyimiz kimsənin əhvalatını oxu. O, ayələrdən kənara çıxdı, şeytanın təqibinə məruz qaldı, axırda da azanlardan oldu. (Əraf surəsi, 175)**

Bu təlqinlərə qapılanlar sanki ölməyəcəkmiş kimi məsuliyyətsiz şəkildə yaşayırlar. Din əxlaqını və Allah'ın qoyduğu qadağaları görməməzliyə vuraraq rahat yaşayacaqlarını ümid edirlər. Onları əhatə edən həqiqətləri görməmək, gördükləri şeyləri isə unutmaq, düşünməmək üçün səy göstərirlər. Bunun üçün də Qurandan uzaq həyat

tərzi seçərək Quranda bildirilən həqiqətləri düşünməməyin, bunlardan qaçmağın və unutmağın, qısaca desək, Quranı dinləməməyin çıxış yolu olmasını istəyirlər. Ancaq heç də şeytanın onlara vəd etdiyi kimi olmaz. Əksinə, Quran ayələrindən qəflətdə keçirdikləri hər dəqiqə onlara sıxıntı və bəla gətirər. Çünki heç kimin qarşısında məsuliyyət daşımadığına və etdiklərindən hesaba çəkilməyəcəyinə inanan insan hər cür əxlaqsızlığı, vicdansızlığı edə bilər. Bu səbəbdən, inkarçılar çox vaxt inanmamaqla məhdudlaşmır, eyni zamanda, elçilərin söylədiklərinə və ya haqq kitabların oxunmasına belə dözməyərək Allah'ın elçilərinə və möminlərə qarşı düşmən mövqeyində olurlar. Tarixin bütün dövrlərində inkar edən insanların davranışları eyni olmuşdur. Çünki onları yönəldən şeytani gücdür. Bu vəziyyət Quranda belə xəbər verilir:

**... Həqiqətən, şeytanlar öz dostlarına sizinlə mübahisə etmək üçün (batil əqidələr) təlqin edirlər... (Ənam surəsi, 121)**

Quranın hər yerdə üstün gələcəyindən xəbərsiz olan, Allah'ın ayələrinə qarşı mübarizə aparanlar da şeytanın yolu ilə gedərək, onun verdiyi əmrləri düşünmədən və vicdanlarının səsini dinləmədən ona tabe olurlar. Ancaq şeytanın bu gizli çağırışları, əslində, onları cəhənnəm odunun əzabına doğru sürükləyir. Allah bu insanlarla bağlı Quranda belə xəbər verir:

**... İnsanlar arasında eləsi də vardır ki, heç bir biliyi, doğru yolu göstərəni və nur saçan bir kitabı olmadan Allah barəsində mübahisə edir. Onlara: "Allah'ın nazil etdiyinə itaət edin!"– deyildikdə, onlar: "Yox! Biz əcdadımızın getdiyi yolu tutub gedəcəyik!"– deyərlər. Əgər şeytan onları (cəhənnəm) odunun əzabına doğru sürükləyirsə, necə olsun? (Loğman surəsi, 20-21)**

# ŞEYTANIN İNSANLARI QURANDAN UZAQLAŞDIRMAQ ÜÇÜN VERDİYİ ƏMRLƏR

Kitabın əvvəlki hissələrində inkar edən insanların liderinin şeytan olduğundan bəhs etdik. Sonrakı hissələrdə də şeytanın inkarçı insanlara verdiyi əmrlərdən və bu əmrlərlə onları Qurandan necə uzaqlaşdırdığından bəhs edəcəyik. Ancaq əvvəl onu qeyd etmək lazımdır ki, şeytan yalnız öz firqəsinə təsir edə bilər.

Şeytanın səmimi qəlbdən Rəbbimizə yönələn, Onun əmr və tövsiyələrinə riayət edən, sadəcə Allah'ın rizasını qazanmaq üçün ixlasla yaxşılıq edən və hər etdiklərinin əvəzini axirətdə görəcəklərini bilən insanlar üzərində heç bir gücü yoxdur. Şeytan Allah'ın cəhənnəm üçün yaratdığı insanlar üzərində hakim olur. Məsələn, Allah bütün qadınlara təsəttür ibadətini fərz qılmışdır. Təsəttür qadını Allah qatında ucaltmağa, onu sıxıntıdan qurtarmağa  səbəb olur. Təsəttürlə birlikdə əxlaq, davranış və hərəkətlər də Quran və sünnəyə uyğun olmalıdır. Şeytan bunu çətin göstərməyə çalışır. Ancaq mömin qadınlar təsəttürün fitrətlərinə uyğun olduğunu bilir və bu fərzi də lazımi qaydada tətbiq edirlər. Şeytanın doğru yoldan azdırmağa çalışdığı, qulağına fısıldadığı vəsvəsələr iman gətirənlərə təsir etməz. Allah bunu ayələrində belə bildirir:

**Şübhəsiz ki, şeytanın iman gətirib yalnız öz Rəbbinə təvəkkül edənlər üzərində heç bir hökmranlığı yoxdur. Onun hakimiyyəti yalnız onu özünə dost tutanlar və Allah'a şərik qoşanlar üzərindədir. (Nəhl surəsi, 99-100)**

Bir başqa ayədə şeytanın bu vəziyyəti belə xəbər verilir:

**Əslində, Mənim (ixlaslı) qullarım üzərində sənin hökmün olmayacaqdır. Qoruyan olaraq Rəbbin yetər". (İsra surəsi, 65)**

Bu səbəbdən, Allah iman gətirənlərə Quranda **"O şeytan sadəcə sizi öz dostları ilə qorxudur. Möminsinizsə, onlardan qorxmayın, Məndən qorxun!** (Ali-İmran surəsi, 175)" şəklində buyurur. Şeytan müxtəlif yollarla insanın bir anlıq səhv etməsinə səbəb ola bilər, ancaq müsəlman səhv edəndə dərhal bunun fərqinə varar və tövbə edib Allah'a sığınar. "Əraf" surəsində iman gətirənlərə belə bildirilir:

**Əgər şeytandan sənə bir vəsvəsə gəlsə, Allah'a sığın. Şübhəsiz ki, O, Eşidəndir, Biləndir. Allah'dan qorxanlara şeytandan bir vəsvəsə toxunduğu zaman (Allah'ı) xatırlayar və dərhal (gerçəyi) görərlər. (Əraf surəsi, 200-201)**

Ancaq inkarçılar şeytanın sözünü dinləməklə, onu özlərinə dost etmişlər. Şeytan onları qorxu, təhdid, dünya həyatına dair müxtəlif aldanışlar, vəsvəsələr və vədlərlə təsiri altına almışdır. Artıq onlar şeytanın firqəsinə, üsyankar ordusuna mənsubdurlar. Şeytanın sözləri onlar üçün bir təlimat və əmrdir. Yalnız onun sözünə itaət edirlər.

Şeytanın insanlara verdiyi ilk əmr isə Allah'ın varlığını inkar etmələridir. Allah'ın **"Şeytana bənzəyirlər. Şeytan insana: "Kafir ol!"– deyir…** (Həşr surəsi, 16)" şəklində bildirdiyi kimi o, insanlara Allah'ın varlığını inkar etmələrini söyləyir. Sonra əmrlər bir-birini təqib edir: Düşünmə! Dinləmə! Oxuma! Öyrənmə! Uzaqlaş! Yaxınlaşma və Qürurlan!…

## Şeytanın əmri: düşünməyin!

Düşünmə qabiliyyəti insana dünya həyatında verilən ən böyük nemətlərdən biridir. Çünki insan ancaq dərin düşünərək Allah'ın sonsuz gücünün, kainatdakı qüsursuz sənətinin fərqinə varır. Yalnız düşünən insan dünyada hər şeyin bir çox hikmətlə yaradıldığını, ölümün yaxın olduğunu və dünya həyatında müəyyən məsuliyyətlərinin olduğunu qavrayır. Quranda bir çox ayədə ancaq düşünən insanların öyüd ala biləcəyi, Allah'ın varlığının dəlillərini ancaq onların görə biləcəyi bildirilmişdir. Quranın nazil edilmə məqsədi **"Sənə nazil etdiyimiz mübarək bir Kitabdır ki, onun ayələrini düşünüb dərk etsinlər və ağıl sahibləri də ibrət alsınlar! (Sad surəsi, 29)"** ayəsində xəbər verildiyi kimi, insanların düşünüb dərk etmələri və ondan ibrət almalarıdır. Lakin insanların əksəriyyəti düşünməyi çətin iş kimi görür. Hətta bu insanlar düşünməyin həyat və nizamlarına zərər verəcəyinə inanırlar. Onların anlayışına görə, ən böyük zərər insana dünya həyatındakı məsuliyyətlərini xatırlatmaq, onu qəflət halından çıxarmaqdır. Çünki düşünməmək insan zehnini boşaldır və onu demək olar ki, yuxuya verir.

Bu yuxu sanki bir sehr kimi insana bütün məsuliyyətlərini, nə üçün var olduğunu, həyatdakı məqsədini, bir gün öləcəyini unutdurur. Bu yuxunun başqa növü isə insanların özlərini dünya həyatının gündəlik və təkrarlanan işlərinə qapdırmalarıdır. Bəlkə bu insanlar gün ərzində çox şey düşünür, qərar verir, yaxud da problem həll edirmiş kimi görünürlər. Amma, əslində, düşündükləri şeylər gündəlik təfərrüatdan başqa bir şey deyil. Bu düşüncələrin heç biri insanın yaradılış məqsədi, dünya həyatının gəlib-keçici olduğu və hər canlının bir gün torpaq olacağı ilə əlaqədar deyil. Əzbərlənmiş, öyrədilmiş, qəliblənmiş hərəkətlər, söhbət və davranışlar insanların bütün həyatını o qədər örtür ki, onlar həyati əhəmiyyətə malik olan həqiqətlər üzərində düşünməyi lazım bilmirlər.

Bu insanlar özləri düşünməkdən qaçdıqları kimi, başqalarının verdiyi nəsihətlərdən də qaçırlar. Allah'a iman gətirmələri, Onun rizası üçün yaşamaları və Quran ayələri üzərində düşünmələri barədə çağırışlardan üz çevirirlər.

Ancaq dünyada hər şey və hər varlıq bir məqsədlə yaradılmışdır. Allah kainatdakı hər şeyi insanın düşünməsi üçün yaratmışdır. Allah Quran ayələrində yeri, göyü və onların arasındakıları kimin daha gözəl davrandığını sınamaq üçün yaratdığını bildirmişdir. İnsan qısa həyatı boyu bütün etdikləri ilə sınanır. Onu yaradan və ölümündən sonra yenidən dirildib hesaba çəkən Allah'a qarşısında məsuliyyəti var. Quranı oxumaq, dinləmək, ayələr üzərində düşünmək və tətbiq etmək hər insanın borcudur. Allah buna **"Məgər kəlam haqqında düşünüb daşınmırlarmı? Yaxud onlara ulu babalarına gəlməyən bir şey gəldi? (Muminun surəsi, 68)"** ayəsi ilə diqqət çəkir.

Düşünən insan kainatdakı nizamın və qüsursuz dizayn nümunələrinin təsadüfən meydana gəlmədiyini, var olan hər şeyin bir yaradıcısının olduğunu anlayacaq. Ətrafındakı yaradılış möcüzələrini düşündükcə Allah'ın varlığının dəlillərini, Onun yaratdığı hikmətləri görərək Allah'a təslim olacaq və yalnız Onun rizasını qazanmaq üçün yaşayacaq. Bu həqiqətin fərqinə varan şeytan insanların qəflət içində yaşamalarını, Allah'ın ayələrindən uzaq durmalarını, bunun üçün də düşünməmələrini istəyir. Allah şeytanın hədəfini bu şəkildə bildirir:

> **(İblis) dedi: "…Sənin düz yolunun üstündə oturub insanlara mane olacağam! Sonra onların yanına qarşılarından və arxalarından, sağlarından və sollarından gələcəyəm…" (Əraf surəsi, 16-17)**

Şeytan bu hədəfinə nail olmaq üçün insanları qəflətə salan xüsusi mühitlər hazırlayır. Belə ki, insanların zəif yönlərindən istifadə edib planlar qurur, ssenarilər hazırlayır və bunları insan nəfsinin zövq ala-

cağı hala gətirir. Dindən uzaq insanlar da belə mühitlərdə iman gətirənlərin əksinə, Allah'ı unudub qəflətə düşürlər.

Məsələn, əyləncə yerləri şeytanın bu planını rahat şəkildə həyata keçirməyə imkan verir. Çünki din əxlaqını yaşamayan insanlar belə yerlərdə heç nə düşünmədən vaxt keçirirlər. Bu məkanlarda dəyər verilən şeylər geyim, bijüteriya, xərclənən pul və ətrafındakı insanlardır. Yüksək səsli musiqi, dumanlı hava, yüksək səsli söhbətlər və bağırtılar Allah qorxusu olmayan insanların diqqətini toplamayacağı və düşünməyəcəyi yerlər olur.

Əlbəttə, insanların əylənmələri, onlara maraqlı olan insanlarla söhbət etmələri gözəl nemətdir. Ancaq burada axirətin unudulduğu, Allah'ın adının anılmadığı məkanlardan söhbət gedir. Yaradılış məqsədini tamamilə unutmuş, Allah qorxusunu qəlbində hiss etməyən, əylənmək üçün deyil, buradakı qafil həyatı yaşamaq üçün vaxtını keçirən insanlar öyüd-nəsihət dinləməzlər. Bu yerlərdə vaxt keçirən insanların əsas məqsədi də budur: hər şeyi unutmaq və düşünməmək. Belə məkanlara "beynini boşaltmaq üçün" gələn insan 10 dəqiqə əvvəl ağlı başında olduğu halda, bir anda buradakı qarışıqlığı normal qəbul etməyə başlayır. Çılğın şəkildə əylənmək üçün hər cür əxlaqsızlığı normal qarşılayır. Halbuki, bu cür yerlərdə qab-qacaq qırmaq, stolu çevirmək, salfetləri atmaq, pencək yandırmaq, pis sözlərlə insanlara sataşmaq, təhdidlər, mübahisələr baş verir.

Bu cür yerlərdə Allah qorxusu olmayan insanların faydalı düşünməsi qeyri-mümkündür. Nəzarətdən çıxmış, şiddət və əxlaqsızlığın təşviq edildiyi məkan burada olan insanların tamamilə şeytanın təlqinlərinə tabe olmasına zəmin yaradır. Beləliklə, şeytan insanları "düşünməyin!" əmrinə itaət etdirir. Allah **"Onlardan gücün çatdığı kimsələri səsinlə (günah)a təhrik et, atlı və piyadanı onların üstünə yerit, mallarına və övladlarına şərik ol, onlara vədlər ver... (İsra surəsi, 64)"** ayəsi ilə şeytanın bu üsuluna diqqət çəkmişdir.

İnsanların qəflət içində yaşadıqları bu həyat sadəcə əyləncə məkanları ilə məhdudlaşmır. Bağırtı, gurultu, insanların Allah'ın ayələrini düşünməkdən uzaqlaşdırıldıqları hər məkan şeytanın yuxarıda bəhs etdiyimiz planının bir hissəsidir. Futbol matçlarında tribunaları, konsertlərdə stadionları dolduran izdihamın meydana gətirdiyi mühitdə də şeytan eyni vasitələrlə insanları düşünməkdən uzaqlaşdırır. Bir çox insan belə yerlərdə əylənmək, maraqlı oyuna baxmaq və ya gözəl səs dinləmək üçün deyil, insanlara bağırmaq, mübahisə etmək, qısaca desək, hər cür çirkin davranışı göstərmək üçün gəlir. Üstəlik, belə yerlərdə bir-iki insan deyil, minlərlə, on minlərlə insandan ibarət izdiham bir-birinə təsir edir və kütləvi surətdə qəflətə düşürlər.

Belə məkanda bir çox insan Allah'ın onu hər yöndən əhatə etdiyini, hər an ölüm mələkləri ilə qarşılaşacağını ağlına belə gətirmir.

Qəflətə qapılıb həqiqətlərdən qaçan insan ölüm mələklərini gözləmədiyi anda qarşısında gördüyündə isə gec olacaq. Çünki o, həyatını boş əməllərlə, çirkin davranışlarla keçirmiş və Quran ayələrini düşünməkdən qaçmışdır. Düşünməmək üçün müxtəlif üsullara əl atmış, şeytanın oyunlarına aldanmışdır. Halbuki, ölümü, həyatın keçiciliyini, Allah qarşısında məsuliyyətlərini düşünən insanın belə qafil halı qəbul etməsi mümkün deyil. Allah'ın hər an canını alacağını bilən, ölümün nə qədər yaxın olduğunun fərqində olan, ağzından çıxan hər sözdən, ağlından keçən hər düşüncədən və etdiyi hər hərəkətdən hesaba çəkiləcəyinin şüurunda olan insan hansı mühitdə olursa-olsun bunu unutmaz, ağlından çıxarmaz və qəflətə qapılmaz.

Unutmaq olmaz ki, bir məkanda Quran əxlaqına uyğun şəkildə əylənməyin yerinə həddini aşan bir adama da, buna təşviq edənlərə də ölüm eyni yaxınlıqdadır. Bəlkə də həmin insan çölə çıxar-çıxmaz ölüm mələkləri ilə qarşılaşacaq, heç gözləmədiyi bir anda Allah'ın hüzurunda hesaba çəkiləcəkdir.

Ölüm insana bu qədər yaxın olduğu halda, insanın qəflət içində

yaşaması, əyləci sıradan çıxmış yük maşınının sürətlə üstünə gəldiyini görüb onu vuracağını bildiyi halda maşının qarşısından çəkilməyən insanın vəziyyətinə bənzəyir. İnsan ömrü boyu belə yaşasa da, ölüm mələkləri canını alarkən bütün yaşadıqlarını arxada qoyar. Əgər insan vaxtını Allah'ın varlığından qafil halda keçirmişsə, o gün cahiliyyə cəmiyyətlərində "həyatını doya-doya yaşamaq" şəklində ifadə edilən bu həyatın ona itkidən başqa bir şey vermədiyini dərk edər. Allah'ı və hesab gününü unutduğu üçün peşman olar. Allah Quranda inkarçıların qəflətdə ikən onlara verilən öyüd-nəsihətlərə olan reaksiyalarını belə bildirmişdir:

**İnsanların haqq-hesab vaxtı yaxınlaşdı, onlar isə hələ də qəflət içindədirlər və üz döndərirlər. Rəbbindən onlara elə bir yeni xəbərdarlıq gəlməz ki, onu məsxərəyə qoyub dinləməsinlər; qəlbləri qəflət içində olaraq... (Ənbiya surəsi, 1-3)**

.

## Düşünmək insana "zərər verir"

Cahiliyyə cəmiyyətində "düşünmək insana zərər verir" kimi batil düşüncə tərzi mövcuddur. Bu, böyük səhvdir. Əslində, bu, insanların Allah'ın ayələri üzərində düşünmələrinin qarşısını almaq üçün şeytanın taktikalarından biridir. Şeytan insanlara düşünərkən çətinlik çəkəcəklərini, yorulacaqlarını təlqin edərək onları Qurandan uzaqlaşdırır. Hətta cahiliyyə cəmiyyətində çox düşünməyin insanı dəli edəcəyinə inanırlar. Bu inanc şeytanın digər oyunları kimi aldadıcıdır. Əksinə, insan düşünmədiyi zaman ağılsızlığından əziyyət çəkir.

Eyni zamanda, insanların bir çoxu ölüm, axirət kimi mövzular barəsində düşünməyin də məsuliyyətlərini xatırladacağını bildiklərinə görə bu mövzuları da düşünmürlər. Bu baxımdan düşünməmək insanların özlərini aldatmaq və həqiqətləri görməməzliyə vurmaq üçün istifadə etdikləri vasitələrdən biridir. Ancaq düşünmədiklərində

məsuliyyətlərinin aradan qalxacağı fikri yanlışdır. İnsan istəyib-istəməsə də, düşünüb-düşünməsə də, məsuliyyətləri azalmaz. Çünki Allah hər kəsi iman gətirməklə və Quran əxlaqını yaşamaqla məsul tutmuşdur. Hər insan dünya həyatında sınanır və əvvəl-axır görməməzliyə vurduğu həqiqətlə üz-üzə gələcək.

Düşünməməyin nəticələrindən biri də bu insanların ətraflarında baş verən hadisələrdən və ya öz başlarına gələn hadisələrdən ibrət almamaqlarıdır. Allah'ın insanların düşünüb davranışlarını düzəltmələri üçün yaratdığı hadisələr bu insanların dəyişməsinə səbəb olmaz. Dünyada hər an meydana gələn hadisələrin təsadüf olduğuna özlərini inandıraraq yaşadıqları ibrətverici hadisələrin hikmətlərini təqdir etməzlər. Allah inkarçıların bu xüsusiyyətindən belə bəhs edir:

**Onlar ildə bir və ya iki dəfə fəlakətə uğradıqlarını görmürlərmi? Yenə də tövbə etmir, ibrət almırlar. (Tövbə surəsi, 126)**

Halbuki, böyük fəlakətlər, dünya həyatındakı bəlalar və sıxıntılar insanları düşünməyə sövq edən hadisələrdir. Lakin inkarçılar bu hadisələri mübahisə mövzusu edir, hadisələrin təsadüfən olduğunu dilə gətirir və bu minvalla düşünməkdən qaçırlar. Allah'ın Quranda bildirdiyi kimi: **"...Atalarımıza da belə qıtlıq və bolluq üz vermişdi...** (Əraf surəsi, 95)", - deyər və qəflətdə yaşamağa davam edirlər. Hər bəlanı və fəlakəti təsadüflərlə, təbii səbəblərlə izah etməyə çalışır, bunun bir xatırlatma olduğunu unutmağa, düşünməməyə çalışırlar. Başlarına gələn fəlakətləri anlamazlıqdan gəlir: "Təsadüflərin yanlışlığı, böyük bir təbii fəlakət, belə olması gözlənilirdi, hər yerdə belə hadisələr olur, bəxtim gətirmədi", - deyərək izah etməyə çalışırlar. "Bu, Allah'ın bizə xəbərdarlığıdır", - deməz, bunu ehtimal belə etməzlər. Bu da şeytanın bir taktikasıdır.

Dünyada insanın başına gələn hər fəlakət, bəla, sıxıntı, yaxud axirətdəki əzabı xatırladan hər hansı bir hadisə Allah'ın insanlara

lütf olaraq verdiyi fürsətlərdir. Allah dünya həyatındakı bu sıxıntıların şiddətini müəyyən dərəcədə saxlayaraq, insanların Ondan qorxmaları və bu hadisələrdən ibrət alaraq davranışlarını düzəltmələrini istəyir. Bir ayədə Allah dünyəvi əzabların hikmətini belə bildirir:

**Ən böyük əzabdan əvvəl Biz onlara mütləq kiçik əzabdan daddıracağıq ki, bəlkə qayıtsınlar. Rəbbinin ayələri yadına salındıqdan sonra onlardan üz döndərən kəsdən daha zalım kim ola bilər?... (Səcdə surəsi, 21-22)**

Allah bu yolla insanlara ölümün yaxın olduğunu, insanın hər hərəkətindən məsuliyyət daşıdığını, dolayısilə, əmr və qadağalarına riayət etməyə borclu olduğunu xatırladır. Ancaq inkarçılar qürurları ucbatından bütün xatırlatmalara əyləncə kimi baxır və inkarlarını daha da artırırlar. Onlara Allah'ın əzabından qorxmalarını, Allah'ın ayələrinə tabe olmağı xatırladan elçilərə **"Əgər doğru deyirsinizsə, bu vəd nə vaxt olacaq?** (Mülk surəsi, 25)" şəklində meydan oxuyan cavablar verirlər. Ya da **"Bu həm bizə, həm də əvvəllər atalarımıza vəd olunmuşdu. Bu, keçmişdəkilərin əfsanələrindən başqa bir şey deyil.** (Muminun surəsi, 83)" kimi ifadələr işlədərək çirkin cəsarət göstərirlər. Allah "Əraf" surəsinin 95-ci ayəsində çirkin davranışlarının əvəzində bu insanların özlərinin də hiss etmədən qəflətən yaxalandıqlarını və böyük əzaba layiq olduqlarını xəbər verir. "Ali-İmran" surəsi insanları o çətin gün barəsində düşünməyə sövq edir:

**O gün ki, hər kəs etdiyi yaxşı və pis əməlləri hazır görəcək, özü ilə (pis əməllərinin) arasında çox böyük məsafə olmasını arzulayacaqdır. Allah sizi Özündən çəkindirir. Allah qullarına şəfqətlidir. (Ali-İmran surəsi, 30)**

## Şeytanın əmri: yaradılış dəlillərini görməməzliyə vurun!

Kainatdakı hər incəlik, təbiətdəki və canlılardakı qüsursuz sistemlər çox mükəmməl quruluşa malikdir. Kainatın böyüyündən ki-

çiyinə qədər hansı bir hissəsini araşdırsaq, hər birinin şüurlu yaradılış dəlillərini ortaya qoyduğunu görərik. Əsla səhv etməyən bir quruluşa malik olan və orbitlərində dövr edən göy cisimlərindən atmosferdəki qazların nisbətinə, insanın yaşaması üçün xüsusi şəkildə yaradılmış bədəndən hüceyrə, zülal, DNT, atom kimi ən kiçik hissələrə qədər saymaqla bitməyən incəlik var. Bütün bunlar mükəmməl şəkildə var edilmişdir və qüsursuz şəkildə varlığını davam etdirir.

Ancaq inkarçılar Allah'ın varlığına və tək olduğuna dair saysız dəlili görməməzliyə vurur, canlıların varlığını təsadüflərlə izah etməyə çalışırlar. İnsanın bədənindəki qüsursuz sistemi, təbiətdəki canlıların yaradılış möcüzələrini, gilasın, çiyələyin, portağalın dadını, qızılgülün qoxusunu, qüsursuz görünüşünü, ulduzların, ayın, günəşin bənzərsiz xüsusiyyətlərini təsadüflərə bağlayır, yaradılış həqiqətini inkar etmək üçün hər vasitəyə əl atırlar. Bu insanlar kainatdakı hər xüsusiyyətin milyonlarla il baş verən təsadüf nəticəsində şüursuz atomların bir yerə yığılması ilə meydana gəldiyini iddia edirlər. Bu mövzuda qarşımızdakı nümunələr təkamül nəzəriyyəsini kor-koranə müdafiə edib bizi əhatə edən milyonlarla yaradılış dəlilini görməməzliyə vuran təkamülçü elm adamlarına məxsusdur.

Hüceyrənin varlığından belə xəbəri olmayan XIX əsrdə yaşamış Çarlz Darvin adlı həvəskar bioloq tərəfindən ortaya atılan bu nəzəriyyə dövrümüzün elmi inkişafı qarşısında böyük məğlubiyyətə uğramışdır. Ancaq bu nəzəriyyənin vacib xüsusiyyəti dini inkar edən materialist ideologiyaya elmi don geydirmək olmuşdur. Bu səbəbdən də təkamül nəzəriyyəsi (elmi cəhətdən məğlubiyyətə uğramasına baxmayaraq) materialist elm adamları tərəfindən hələ də yaşadılmağa çalışılır. Bu elm adamları yaradılış həqiqətini inkar etmək üçün elmi həqiqətlərdən qaçır, dəlillərə etibar etmirlər. Onları ən çox narahat edən şey isə yaradılış həqiqətinin dəlillərlə ortaya qoyulması və təkamül nəzəriyyəsinin qüsur və xətalarının elmi qaynaqlarla

sübut edilməsidir. Təkamülçü elm adamlarının təkamül nəzəriyyəsinə bağlılıqları artıq elmi yanaşmadan uzaqlaşmış, kor-koranə bağlılıq halına gəlmişdir.

Quranda Allah'ın varlığının dəlilləri gətirildiyi halda, atalarının dininə olan bağlılıqları ucbatından inkarda israr edən qövmlər nümunə verilmişdir. Bütün dəlillərə baxmayaraq, inanmamaqda israr etmək inkarçıların ortaq xüsusiyyətidir. Allah Quranda inkarçıların bu yönlərini bir çox ayə ilə xəbər verir:

**Sizdən əvvəlki nəsilləri də zülm etdiklərinə və elçiləri onlara açıq-aşkar dəlillər gətirdikləri halda, (onlara) inanmadıqlarına görə məhv etdik... (Yunis surəsi, 13)**

Hal-hazırda yaradılışı inkar edənlərlər də yuxarıdakı ayədə xəbər verilən nəsillər kimi iman etməməkdə israr edirlər. Bu insanlar açıq-aşkar dəlillərə baxmayaraq, kainatın və bütün canlıların təsadüfən yarandığını, bu dünyada heç kimin qarşısında məsuliyyət daşımadıqlarını iddia edir və Qurandan üz çevirirlər. İmanlı insanlar ətrafdakı hər yaradılış dəlilini heyranlıqla və diqqətlə izləyərkən, Allah'ın yaradılışındakı ehtişam qarşısında hər gün heyranlıqlarını qat-qat artırarkən, digərləri bu dəlilləri görməyəcək qədər korlaşmışlar. Bu, insanların vicdanlarının korlaşmasının və Allah'ın haqq kitabından uzaqlaşmalarının nəticəsidir.

İnsanların həqiqətləri görməzlikdən gəlməsinin səbəbi isə onların inkar etmələri üçün ciddi səy göstərən şeytandır.

Quranda "**Kim mərhəmətli (Allah'ın) zikrindən üz döndərsə, Biz şeytanı ona calayarıq və o da ona yoldaş olar. Şübhəsiz ki, şeytanlar onları haqq yoldan sapdıracaq, onlar isə özlərinin haqq yolda olduqlarını güman edəcəklə**r. (Zuxruf surəsi, 36-37)" ayələrində bildirildiyi kimi, şeytan bu insanları doğru yoldan azdırır. Allah'ın qüsursuz plan və dizaynı hər yeri əhatə etmişkən, şeytan inkar edənləri həqiqətlərdən uzaqlaşdırır, dünyəvi işlərlə məşğul edir

və onların bu dəlilləri görməzlikdən gəlmələrinə səbəb olur.

Şeytanın tələsinə düşən insanlar onlara haqqı söyləyən insanlara şiddətlə etiraz edirlər. Bu vəziyyət onların iman gətirənlərə qəzəblənmələrinə, kin və nifrət bəsləmələrinə gətirib çıxarır. İnkarçıların Allah'ın varlığına dair dəlillərin göstərilməsindən və izah edilməsindən keçirdikləri narahatlıq hissini Allah bir ayədə belə bildirir:

**...Elçiləri onlara açıq-aydın dəlillər gətirdilər. Onlar isə əllərini ağızlarının üstünə qoyub dedilər: "Biz sizinlə göndərilənlərə inanmırıq..." (İbrahim surəsi, 9)**

Qeyd etmək lazımdır ki, inkar edənlər həqiqətləri, yəni Allah'ın varlığına dair dəlilləri və Quranın haqq kitab olduğunu qəsdən görməzlikdən gəlirlər. Bu insanlar həqiqəti bilə-bilə inkar edir, düşünmək istəmirlər. Allah'ın **"...Halbuki, onlardan bir zümrə var idi ki, Allah'ın sözünü eşidib anladıqdan sonra, bilə-bilə onu təhrif edirdilər.** (Bəqərə surəsi, 75)" ayəsində bildirdiyi kimi, bilirlər, amma inkar edirlər. Çünki yaradılış həqiqətini dərk etmək, Allah'ın bənzərsiz sənətini təqdir etmək üçün çox düşünməyə, saatlarla araşdırmağa, oxumağa gərək yoxdur. İnsan vicdanının səsini dinləyib, səmimi qəlblə bir az diqqət etsə, bir neçə saniyə düşündüyü zaman yaradılış həqiqətini inkar edə bilməyəcək. İnsan vicdanının səsini dinləməli və şeytanın vəsvəsələrinə qarşı diqqətli olmalıdır.

## Şeytanın əmri: lovğalanın

Allah'ın ayələrinə iman gətirməyənlərin, Onun əmr və qadağalarına itaət etməyənlərin ortaq xüsusiyyətlərindən biri də təkəbbürdür. Şeytan insanlara lovğalanma hissi verərək insanları Allah'a təslim olmağa, Quran ayələrini dinləməyə qoymur.

Allah'ın **"Ayələrimiz onlara oxunduğu zaman sanki onları eşitmirmiş, qulaqlarında tıxac varmış kimi təkəbbürlə üz çevirər. Sən belələrini ağrılı-acılı bir əzabla müjdələ.** (Loğman surəsi,

7)" ayəsində bildirdiyi kimi, insanlar qürurları səbəbindən ayələrdən üz çevirirlər.

Şeytan insanlara lovğalanma hissini verərək hər şeyi yalnız özünün doğru şəkildə bildiyinə inandırır. Bu səbəbdən, insan ətrafındakıların xatırlatmalarına, tövsiyə və tənqidlərinə qürur və istehza ilə cavab verir. Heç kimi və heç nəyi yol göstərici qəbul etmədiyi kimi, sadəcə öz imanından vaz keçməmək üçün yanlış olduğunu gördüyü şeylərdən belə vaz keçmir. Öz fikrinin yanlış olduğundan, xətalı yönlərinin olduğundan bir az şübhələndikdə doğrunu görə bilər. Lakin inadkar, sabit fikirli xarakter göstərir. Bu səbəbdən, dəvəti səmimiyyətlə dəyərləndirmir, səhv anlayır, iman gətirənlərin bu dəvətlə onlardan üstün olmaq istədiyini düşünərək özlərini aldadırlar. İman gətirənlərin heç bir qarşılıq gözləmədən, sadəcə Allah'ın rizası üçün insanlara Quran əxlaqını izah etdiklərinə inanmaq istəmirlər. İnkarçıların bu qənaətinə keçmiş qövmlərin zadəganları ilə əlaqəli bir ayədə belə diqqət çəkilir:

**Qövmünün kafir zadəganları dedilər: "O da sizin kimi sadəcə bir insandır. Sizə böyüklük etmək istəyir. Əgər Allah istəsəydi, mələklər göndərərdi. Biz bunu ulu babalarımızdan eşitməmişik". (Muminun surəsi, 24)**

Ancaq unutmaq olmaz ki, qürur və təkəbbürün insana qazandırdığı zərər çox böyükdür. Boş qürur savaşı aparan inkarçılar doğrunu yanlışdan ayırmaq və etdikləri səhv hərəkətlərdən dönmək, özlərini islah etmək kimi fürsəti itirirlər. Səhv etdiklərini əsla qəbul etmədikləri üçün özlərini inkişaf etdirə bilmirlər. Çünki bütün yolları əvvəlcədən bağlamışlar. Xəbərdarlıqların öz lehlərinə olduğunu belə düşünməzlər. Öz fikirlərinin, düşüncə və inanclarının doğru olduğuna o qədər əmin olurlar ki, kiminsə onlardan ağıllı olduğunu ehtimal belə etmirlər. Allah qürurun insanı üsyana necə sürüklədiyini bir ayəsində belə xəbər verir:

**Ona: "Allah'dan qorx!"– deyildikdə, lovğalıq onu daha da günaha sürükləyər… (Bəqərə surəsi, 206)**

Keçmişdə firon da hz. Musanın peyğəmbərlik məqamını və onun Allah'a boyun əymək təklifini qüruruna sığışdırmamış və özünün güc və maddi imkan baxımından daha üstün olduğunu düşünmüşdür. Qürurlanaraq Allah'a üsyan etmiş, ona izah edilənləri dinləməmiş, lovğalandığından Allah'ın ayələrindən üz çevirmişdir. Eynilə, qövmünə də Allah'ın ayələrindən üz çevirmək üçün təzyiq göstərmişdir. "Taha" surəsində fironun qövmünə bu cür səsləndiyi bildirilir:

**(Firon) dedi: "Mən sizə izn verməmişdən əvvəl siz Ona iman gətirdiniz? Şübhəsiz ki, O, sizə sehr öyrədən böyüyünüzdür. Mən sizin əllərinizi və ayaqlarınızı çarpaz kəsdirib xurma ağaclarının gövdələrində çarmıxa çəkəcəyəm. Onda hansımızın əzabının daha şiddətli və daha sürəkli olduğunu biləcəksiniz!" (Taha surəsi, 71)**

Təkəbbüründən qaynaqlanan zorakılığı və zülmü ilə tanınan firon da bu baxımdan tamamilə şeytanın təsiri altına düşən, onun əmrlərinə tabe olan şəxs idi. Onun bu azğın xarakterini Allah **"Özünü yüksək tutan və həddi aşanlardan idi.** (Duxan surəsi, 31)" ayəsi ilə xəbər vermişdir.

İnsana bu əxlaqı əmr edən şeytandır. Ancaq şeytan insanların "lovğalanın!" şəklindəki əmrinə itaət etmələrini kafi görməz. Onun istəyi insanları da özü ilə birlikdə Allah'a qarşı üsyan etdirməkdir. Bir ayədə Allah şeytanın əsl hədəfini belə xəbər verir:

**(İblis) dedi: "Ey Rəbbim! Sən məni yoldan çıxartdığına görə, mən də yer üzündə onlara (pis işləri) gözəl göstərib onların hamısını azdıracağam. (Hicr surəsi, 39)**

Şeytan bu istəyinə nail olmaq üçün üsyan etməyi iman etməyənlərin gözündə gözəl göstərməyə çalışır. Bu səbəbdən, inkarçılar özlərini Allah'ın əmr və qadağalarına tabe olmağa çağıran möminlərə qarşı da çox üsyankar davranır və məlumatlarının az ola bildiyini ehtimal belə etmirlər. Onlar Quran ayələrini dinləməz, lovğalanaraq üz çevirərlər. Quranda Allah hz. Musanın təbliğinə fironun əzəmətlə cavab verməsindən belə bəhs edir:

**(Musa) ən böyük möcüzəni (firona) göstərdi. O isə yalan sayıb üsyankar olduğunu göstərdi. Sonra da üz döndərib (fəsad törətməyə) girişdi. O, (camaatını) toplayıb dedi: "Sizin ən uca rəbbiniz mənəm!" (Naziat surəsi, 20-24)**

Qısaca desək, inkarçılar özlərinin hərtərəfli üstün olduqlarına inanmaq istəyirlər. Fironun misalından da göründüyü kimi, özlərinin aciz qul olduğunu qəbul etməyi qürurlarına sığışdırmazlar. Tərk edə bilmədikləri qürur onları üsyana sürükləyər. Hətta **"Möcüzələrimiz onlara aşkar şəkildə göstərildikdə... Buna qəti inandıqları halda, haqsızcasına və təşəxxüslə onları inkar etdilər...** (Nəml surəsi, 13-14)" ayələrində olduğu kimi, Allah'ın varlığını dəlilləri ilə görsələr belə, şeytanın təsiri ilə inkarlarında israr edərlər. Şübhəsiz, dünyada Allah'a qarşı baş qaldıraraq şeytanın əmrlərinə uyanlar bunun əvəzini axirətdə ödəyəcəklər:

**Ayələrimizi yalan sayıb onlara təkəbbürlüklə yanaşanlar isə od sakinləridirlər. Onlar orada əbədi qalacaqlar. Allah'a qarşı yalan uyduran və ya Onun ayələrini yalan hesab edən kimsədən daha zalım kim ola bilər... (Əraf surəsi, 36-37)**

## Şeytanın əmri: dinləməyin

Şeytan doğrunun və yaxşının hiss edilməsinin tərəfdarı deyil. Çünki Quranı eşidən və dinləyən insan vicdanının səsinə tabe olaraq yaxşıların yanına keçə bilər, haqqı tətbiq etməyə, yaşamağa və yaşatmağa başlaya bilər. Məhz bu səbəbdən, şeytan tərəfdarlarını ilk növbədə Qurandan, dolayısilə də Quranı təbliğ edən müsəlmanlardan uzaqlaşdırmağa çalışır. Allah insanları gözəl və doğru olanı etməyə, Allah'ın razılığını qazanaraq nemət içində yaşamağa dəvət edərkən insanların çoxu şeytanın əmrlərinə tabe olaraq izah edilənləri eşitməmək üçün əllərindən gələni edirlər. Allah **"Kafirlər: "Bu Qurana**

**qulaq asmayın, (oxunarkən) hay-küy salın. Bəlkə, qalib gələsiniz"– dedilər.** (Fussilət surəsi, 26)" ayəsi ilə bu insanların necə münasibət göstərdiklərini bildirilmişdir.

İnkarçılar Quranı dinləməmək üçün müxtəlif vasitələrə əl atır, yüksək səslə danışaraq üstün gəlməyə çalışır, təcavüzkar üslubla ayələrin oxunmasının qarşısını almağa çalışırlar. Bu vasitələr işə yaramadığında iman gətirənləri susdurmaq üçün şiddətə, təhdidə və başqa təzyiq üsullarına baş vururlar. Bu hərəkətlərinin səbəbi isə eşitdikləri həqiqətlərdən təsirlənəcəklərindən, vicdanlarının oyanacağından və bəzi düşüncələrinin nə qədər səhv olduğunu dərk edəcəklərindən qorxmalarıdır. Bu qorxularını onların üz ifadələrindən, davranışlarından, Quran ayələri oxunarkən və yaradılış həqiqəti izah edilərkən panikaya düşmələrindən anlamaq mümkündür.

Quranda insanlara rəhmət və müjdə olan, onların dünya və axirət həyatlarını xilas edə bilən məlumatların olmasına baxmayaraq, inkarçıların haqqı dinləməkdən qaçacaqlarını bildirən ayələrdən bir neçəsi belədir:

**Ayələri Quran kimi ərəbcə müfəssəl izah edilmiş, (anlaya) bilən camaat üçün bir Kitabdır. O, həm müjdə verən, həm də xəbərdar edəndir. Lakin onların çoxu üz çevirib söz eşitməzlər. (Fussilət surəsi, 3-4)**

**Onlara: "Önünüzlə olan və arxanızca gələndən qorxun ki, bəlkə sizə rəhm oluna!"– deyildikdə (üz çevirirlər). Onlara öz Rəbbinin ayələrindən elə bir ayə gəlmir ki, ondan üz döndərməsinlər. (Yasin surəsi, 45-46)**

Quranda bu mövzuda hz. Nuhun qövmü nümunə verilmişdir. Qövmlərinə Allah'ı tək İlah etmələrini, gözəl əxlaqı yaşamalarını nəsihət edən bütün peyğəmbərlər kimi, hz. Nuh da qövmünün inkarı ilə qarşılaşmışdır:

**O dedi: "Ey Rəbbim, mən xalqımı gecə də, gündüz də**

**dəvət etdim. Amma dəvətim onların qaçmalarını daha da artırdı. Sən onları bağışlayasan deyə, mən hər dəfə onları dəvət etdikdə, onlar barmaqlarını qulaqlarına tıxayır, paltarlarına bürünür, israr edir və ötkəm-ötkəm təkəbbürlənirdilər". (Nuh surəsi, 5-7)**

Ayədə də bildirildiyi kimi, hz. Nuh qövmünü müxtəlif yollarla Allah'a iman gətirməyə dəvət etmiş, ancaq qövmü onu dinləməmişdir. Burada vacib məqamı vurğulamaq lazımdır. Elçilərin bu dəvətlərindən üz çevirənlər və Allah'ın vəhyini dinləməmək üçün qulaqlarını tıxayanlar bunu şeytanın güclü təlqini ilə edirlər. Çünki inkarçılar bir kəlmə belə dinləmədən, elçilərə endirilən müqəddəs kitabları oxumadan izah edilənlərə qarşı çıxırlar. Allah "Kəhf" surəsinin 101-ci ayəsində inkarçıların Quranı dinləməyə dözmədiklərini bildirir. Bu insanlar: "Dinləsəm də, vaz keçməyəcəm", -deyərək əvvəldən üz çevirirlər.

Halbuki, belə vəziyyətdə məntiqli davranmaq, yəni dəvəti dinləmək, izah edilənlər barədə ətraflı məlumat toplamaq, Allah'ın haqq kitabını diqqətli şəkildə oxumaq lazımdır. Ancaq inkar edənlər şeytanın "dinləməyin!" əmrinə tabe olur və əvvəldən üz çevirirlər. Çünki şeytan çox yaxşı bilir ki, əgər insanlar Quranı səmimi şəkildə dinləsələr, qəflətdən xilas olar və açıq şüurla Quranda bildirilən həqiqətlərin fərqinə vararlar. Məhz bu səbəbdən, şeytan insanların Quranı dinləmələrinin qarşısını almağa çalışır.

Onun bu tələsinə düşüb Quranı dinləməmək üçün qulaqlarını tıxayanlar bilməlidirlər ki, hesab günü kitabları sol əllərinə verildiyində böyük peşmanlıq hissi keçirəcəklər. O gün şeytanın firqəsinin istədiyi yeganə şey ölüm olacaqdır:

**Kitabı sol əlinə verilən kimsə isə deyəcəkdir: "Kaş kitabım mənə verilməyəydi! Hesabımdan da xəbərim olmayaydı! Kaş ilk ölümüm həmişəlik olaydı! Var-dövlətim məni qurtarmadı. Hökmranlığım da məhv olub getdi".**

**(Mələklərə deyiləcək): “Onu yaxalayıb zəncirləyin! Sonra da cəhənnəmə atın! Çünki o, böyük Allah’a iman gətirmirdi və kasıbı yedirtməyə rəğbətləndirmirdi. Bu gün burada onun üçün bir dost tapılmaz. Qanlı irindən başqa yeməyi də yoxdur. Onu ancaq günahkarlar yeyər”. (Haqqə surəsi, 25-37)**

## Şeytanın əmri: iman gətirənlərə yaxınlaşmayın, uzaqlaşın

Şeytanın insanların Quranda izah edilənləri dinləmələrinə, oxuyub öyrənmələrinə mane olmaq üçün verdiyi başqa bir əmr ‘’yaxınlaşmayın, uzaqlaşın’’ şəklindədir. Bunun üçün özünə tabe olanları Quranı oxuyan, tətbiq edən və Qurana dəvət edən insanlardan uzaqlaşdırmağa çalışır. Çünki iman gətirənlər Allah’a olan güclü təslimiyyətləri sayəsində hər hərəkət, davranış və söhbətlərində insanlara Allah’ı xatırladır, gözəl əxlaqları ilə ətraflarında müsbət aura yaradırlar. Möminlərlə birlikdə olan insanlar istəsələr də, istəməsələr də onlardan təsirlənir və qəlbləri İslama isinir. Bu isə şeytanın istəmədiyi bir şeydir. Bu səbəbdən də inkar edənlərə iman gətirənlərdən uzaqlaşmalarını, onlarla münasibət qurmamaqlarını əmr edər. Hətta iman gətirənlərə qarşı istehzalı münasibət göstərmələrini istəyər, çünki bununla aralarında isti münasibətin yaranmasının qarşısını ala bilər.

Şeytanın güclü təlqini sayəsində inkar edənlər Allah’a iman gətirənlərdən uzaqlaşmağa səy göstərirlər. Bir insanın iman gətirdiyini, Allah üçün yaşadığını bilmələri inkarçıların bu insandan uzaqlaşmaları, ya da ona qarşı kin bəsləmələri üçün yetərli olur. Çünki möminlər xatırlatdıqları həqiqətlər sayəsində inkarçıların din əxlaqından uzaq yaşadıqları həyat üçün mənəvi cəhətdən təhlükəlidirlər. Quranda inkarçıların Allah’ın ayələrini zikr edən və ya xatırladan mö-

minlərə qarşı münasibətləri bu şəkildə izah edilir:

**Həqiqətən, kafirlər Quranı eşitdikləri zaman az qala səni gözləri ilə yeyərlər. Onlar: "O divanədir!" – deyirlər. Halbuki, bu aləmlərə ancaq bir öyüd-nəsihətdir! (Qələm surəsi, 51-52)**

**Kafirlərə açıq-aydın ayələrimiz oxunduqda sən onların üzündə nifrət görərsən. Onlar az qalırlar ki, ayələrimizi onlara oxuyanların üstünə cumsunlar… (Həcc surəsi, 72)**

Ayələrdə inkar edənlərin iman gətirənlərə olan kinləri, düşmənçiliyi izah edilir və bunun yeganə səbəbi də Allah'ın ayələrinin oxunması olduğu bildirilir.

İnkarçıların məqsədlərindən biri də özləri kimi digər insanları da din əxlaqından uzaqlaşdırmaq, doğru yoldan sapdırmaqdır. Bu səbəbdən, iman gətirənlərə qarşı simpatiya bəsləyən, onlarla görüşmək və fikirlərini dinləmək istəyən insanların qarşısını almaq üçün əllərindən gələni edir, uzaqlaşdırmaq üçün səy göstərirlər. Beləliklə, Allah'ı və Onun ayələrini xatırladan, ölümün yaxın olduğunu düşünmələrini söyləyən, hesab günü ilə xəbərdar edən və vicdanlarını oyadan insanların ətrafında olmasının qarşısını alırlar. Hər kəsin özləri kimi Quran ayələrindən qaçaraq yaradılış məqsədini düşünmədən yaşamaları isə daha asan olacaq.

İnkarçıların hədəfləri iftira və təzyiqlə iman gətirənləri cəmiyyətdən uzaqlaşdırmaq, bütün əlaqələrini kəsməkdir. Çünki bu, onların insanları haqqa dəvət etmələrinin qarşısını alan ən təsirli vasitədir. Bu barədə Quranda verilən nümunələrdən biri Kəhf əhlidir.

İman gətirən bir qrup gənc inkarçı qövmlərin təzyiqi nəticəsində bir mağaraya sığınmaq məcburiyyətində qalmışdılar. "Kəhf" surəsində bu insanlarla əlaqədar belə bildirilir:

**Onlar (kafir hökmdarın qarşısında) durub: "Rəbbimiz göylərin və yerin Rəbbidir. Biz heç vaxt Ondan başqa tan-**

**rıya ibadət etməyəcəyik. Əks halda, olduqca böyük bir (küfr) danışmış olarıq!"– deyərkən onların qəlbinə qüvvət verdik. (Cavanlardan biri o birilərinə dedi:) "Bizim bu xalqımız Allah'dan başqa tanrılar qəbul etdi. Bəs nə üçün onlar buna aid bir dəlil gətirmədilər? Allah'a qarşı yalan uydurandan daha zalım kim ola bilər?! Madam ki, siz onları və Allah'dan savayı ibadət etdiklərini tərk etdiniz, onda mağaraya sığının ki, Rəbbiniz sizə Öz mərhəmətini geniş etsin və işinizdə sizin üçün fayda hazırlasın. (Kəhf surəsi, 14-16)**

İnkarçılar tarixən peyğəmbərlərin də cəmiyyət tərəfindən dəstəklənməməkləri üçün müxtəlif iftira və təzyiqlərə əl atmışlar. Bu iftiraların səbəbi insanların onlardan qaçmalarını, uzaqlaşmalarını təmin etməkdir. Ancaq inkarçılar (hz. Nuhun qövmündə olduğu kimi) etdiklərindən yalnız özləri ziyan çəkəcəklər:

**Onlar həm haqdan uzaqlaşdırır, həm də özləri ondan uzaqlaşırlar. Onlar ancaq özlərini həlak edir və bunu hiss etmirlər. (Ənam surəsi, 26)**

## Şeytanın əmri: Quran əxlaqından bəhs edən kitabları oxumayın, oxutmayın

Tarix boyu inkarçılar insanların iman gətirmələrinə mane olmaq, iman gətirənləri isə bu yoldan döndərmək üçün müxtəlif vasitələrdən istifadə etmişlər. Bu vasitələrdən biri və ən başlıcası insanları din əxlaqı mövzusunda məlumatlandıran, gözəl əxlaqı öyrədən kitablardan uzaqlaşdırmaq olmuşdur. Bu məqsədlə saysız-hesabsız kitab yandırmış, çap edilməsinin və yayılmasının qarşısı alınmışdır. Xüsusilə, dövrümüzdəki kommunist və materialist sistem insanlara Allah'ın varlığının dəlillərini göstərməyi hədəfləyən və Quran əxlaqından bəhs edən kitabların oxunmasına, oxudulmasına təzyiqlərlə, sui-

qəsdlərlə, iftiralarla mane olmağa çalışmışdır.

Yaradılış həqiqətini və Quran həqiqətlərini izah edən kitabların qəsdən zərərli və elmdən uzaq olduğunu qələmə verərək, insanları Allah'a iman gətirməyə dəvət edən insanların cəmiyyətdəki nüfuzunu zədələməyə çalışmışlar.

Əslində, bütün bunlar şeytanın insanların Allah'ı inkar etmələri üçün uyğun zəmin hazırlamaq məqsədilə apardığı siyasətdir. Bir qisim din əxlaqından uzaq insanlar şeytanın insanların oxuyub-öyrənmələrinə, mühakimə edib həqiqətləri bilmələrinə mane olma yönündəki hədəfinə vasitəçi olurlar. Bu siyasət Rusiya, Çin kimi kommunist ölkələrdə açıq şəkildə tətbiq edilərkən, materialist həyat anlayışına sahib idarəçilər də buna təşviq edilmişdir. Kommunist Rusiyanın müsəlman-türk dövlətlərində əlifbanı dəyişdirməsi, sonra bütün kitab nəşrlərini nəzarət altına almasının səbəblərindən biri də insanların dinlərini öyrənmələrinə mane olmaq, dolayısilə, mənliklərini itirmələrini təşkil etməkdir. Eynilə Çin dövləti də Şərqi-Türküstan xalqının müsəlman mənliyini itirməsi üçün Quran və Qurandan bəhs edən kitablar oxunmasına qadağa qoyması buna misal ola bilər.

Nəticədə, inkarçılar yaradılışa dair kitabları başqalarına oxutmadıqları kimi, özləri də oxumazlar. Çünki Allah'ı və din əxlaqını izah edən əsərləri oxuduqları zaman öz fəlsəfələrindən şübhəyə düşməkdən, müdafiə etdikləri fikirlərə olan inanclarını itirməkdən qorxurlar. Bu səbəbdən, kommunistlərin lideri Leninin illər əvvəl "insan özünü dinə həsr etməmək üçün dindən uzaq durmalıdır" yönündə verdiyi nəsihətləri ondan sonra gələn inkarçılar da bir-birlərinə vəsiyyət edərək tətbiq etmişlər.

Həyatlarını dinsiz fəlsəfə üzərində quran bu insanlar üçün Allah'ın varlığını və hər şeyi Onun yaratdığını qəbul etmək kabusa çevrilmişdir. Bu səbəbdən, əvvəlki qövmlər kimi Allah'a təslim ol-

maqdan qaçır, Allah'ın lütf olaraq onlara göndərdiyi haqq kitabdan faydalanmırlar. Ancaq bu qaçış onlara zərərdən başqa heç nə verməyəcək.

## Şeytanın əmri: lağ edin

İnkarçıların Quranı dinləməmək üçün ən çox istifadə etdikləri vasitələrdən biri Allah'ın ayələrinə və möminlərə istehza etmələridir. Allah inkarçıların bir-birlərinə vəsiyyət etdikləri bu əxlaqi pozuntunu bir ayəsində belə bildirir:

**Onlara Rəbbindən gələn elə bir ayə yoxdur ki, ondan üz çevirməsinlər. Onlara haqq gəldikdə onu yalan saydılar. İstehza etdikləri şeyin xəbəri onlara tezliklə çatacaqdır. (Ənam surəsi, 4-5)**

Bir başqa ayədə isə bu şəkildə bildirilir:

**(Musa) dəlillərimizi onlara bəyan edən kimi onlar buna güldülər. (Zuxruf surəsi, 47)**

İstehza etmələrinin səbəbi isə izah edilənləri dinləmək istəməmələridir. Çünki bu həqiqətlərə qulaq asanda vicdanları oyanır, axirətin varlığının, ölümün və dünya həyatındakı məsuliyyətin ağıllarına gələcəyindən qorxurlar. Bu səbəbdən, Allah'ın elçiləri vasitəsilə endirdiyi dinlərə lağ etmək məqsədilə bu mövzuda fikirlərinə görə karikaturalar çəkir, istehzalı yazılar yazır, bununla nəşələnməyə və Quranda bildirilən həqiqətləri unutmağa çalışırlar.

İnkarçıların bu üslubu şeytanın firqəsində bir-birlərinə qarşı dərin hörmət və heyranlıq meydana gətirir. İstehza etməyi üstünlük kimi gördüklərindən bunu edən insana hörmət edirlər. Etdiklərinə görə iman gətirənlərin zərər görəcəklərini və mənəvi cəhətdən çökmələrini düşünmələri isə böyük səhvdir. İnananların bu vəziyyət haqqında düşündüklərini anlamazlar. Çünki onlar istehzanı güc göstərişi və üstünlük kimi qavrayırlar. Halbuki, istehza çarəsizliyin və gücsüz-

lüyün əlamətidir. İstehza fikri açıqlaması olmayan, qarşısındakı fikrə qarşı dəlil gətirə bilməyən insanların bu zəifliklərini və komplekslərini gizlətmək üçün istifadə etdikləri vasitədir. Quranda bu mövzuya xüsusilə diqqət çəkildiyi üçün istehzanın dinə inanmayanların inananlara qarşı istifadə etdiyi vasitə olduğunu bilən müsəlmanlar bu davranışı ibadət həzzi ilə qarşılayarlar. Lakin lağ edən şəxs bunu bilmədiyi üçün etdiyi hərəkətin təsirli olduğunu düşünür. Eyni hərəkət özünə qarşı ediləndə özü bundan təsirləndiyindən, qarşı tərəfin də bu cür reaksiya verəcəyindən əmin olur.

İnkarçılar dövrümüzdə də Quran ayələrinə və iman gətirənlərə istehza edərək, inkar etmələrini dini zarafatlarına mövzu edərək bunun bir üstünlük olduğunu düşünürlər. İstehza ilə inkarlarını haqlı göstərməyə çalışan insanlar Allah'ın "**Allah da onlara istehza edər və azğınlıqlarını (o qədər) artırar ki, sərgərdan gəzərlər.** (Bəqərə surəsi, 15)" ayəsi ilə bildirdiyi kimi, ancaq qısa müddət istehza edə bilərlər. Ölüm gəlib çatdığı zaman "…**İstehza etdikləri (əzab) onları bürüyəcəkdir.** (Zumər surəsi, 48)" ayəsinə uyğun məkanla qarşılaşacaqlar.

Allah lağ edənlərin cəhənnəm əzabı qarşısındakı vəziyyətlərini Quranda belə təsvir edir:

> **Sən onlara təəccüb edirsən, onlar isə (səni) ələ salırlar. Onlara xatırlatdıqda düşünüb ibrət almırlar. Bir möcüzə gördükdə isə ona istehza edir və deyirlər: "Bu ancaq gözlə görülən bir sehrdir. Məgər biz öldükdən, sür-sümük olub torpağa çevrildikdən sonra dirildiləcəyikmi? Ya da atalarımızmı (dirildiləcəklər)?" De: "Bəli, özü də, zəlil günə qalmış olduğunuz halda (dirildiləcəksiniz)". Bu, təkcə dəhşətli bir səs olacaq və onlar qəfildən (dirilib) görməyə başlayacaqlar. (Günahkarlar) deyəcəklər: "Vay halımıza! Bu ki, haqq-hesab günüdür!" (Onlara deyiləcək:) "Bu, yalan saydığınız fərqləndirmə günüdür!" (Saffat surəsi, 12-21)**

## Şeytanın əmri: çoxluğa uyun

İnsanların Quranda bildirilən həqiqətlərdən qəflətdə olmalarının və Allah'ın ayələrini inkar etmələrinin ən vacib səbəblərindən biri də şeytanın onları inkar edən insanların çoxluğu ilə aldatmasıdır. İnsanların əksəriyyətinin Allah'ı inkar etməsi, yaradılış həqiqətindən qaçması və Quran əxlaqına uyğun olmayan həyat tərzi keçirməsi, öz həyatını cəmiyyətdə qəbul edilən normalara əsasən qurması bir insan üçün qaçış vasitəsidir. Bu səbəbdən, ona verilən hər suala "hamı belə edir, onlar da inkar edir, onlardan belə gördüm!" kimi qəlibləşmiş cavablar verir. Belə insanın düşdüyü vəziyyət onu düşünməkdən də məhrum edir.

Bu insanlar düşünmədən, həyatın girdabına düşərək əzbərlədikləri şeylərdən başqa "mən niyə bunları edirəm, niyə bu insanlarla birlikdəyəm, niyə onların ardınca gedirəm, niyə düşünmədən hərəkət edirəm?" kimi sualları özlərinə verməzlər. Ağıl və vicdanlarına ehtiyac duymadan, cəmiyyətin doğru və yanlışlarını olduğu kimi mənimsəyər, onların qurduğu həyat şəklini yaşayarlar. Buna səbəb olaraq isə yaşadıqları cəmiyyətin qəbul etdiklərini göstərirlər. Allah'ın ayələrindən üz çevirərək öz yanlış məntiq və düşüncələrini göstərici kimi qəbul etmələri, onların güclü olduğu batil inancına qapılmalarına səbəb olur. İzdihamla birlikdə hərəkət edən şəxslərin müstəqil şəkildə düşünüb qərar vermələri də o qədər çətin olur. Bir-birlərinin izni, razılığı olmadan hərəkət etməkdən çəkinirlər. "Çoxluğa uyma" psixologiyası əsasında haqqı və doğrunu bilsələr belə, bunu açıqlamaqdan çəkinərək səmimi qənaətlərini gizlədərlər.

Bu mövzuda ən çox rast gəldiyimiz nümunələrdən biri təkamül nəzəriyyəsini müdafiə edən materialistlərdir. Təkamülə inananlar: "İllərdən bəri müdafiə edildiyinə görə bu doğrudur", -deyə düşünürlər, "bu qədər insan təkamülə inanırsa, mən də inanmalıyam" düşüncəsi ilə hərəkət edir və "hər kəs elmi həqiqətləri görməməzlikdən

gəlirsə, hər halda, mən də elə etməliyəm" nəticəsinə varırlar. Beləliklə, kor-koranə təkamül nəzəriyyəsini müdafiə etməyi özlərinə borc bilirlər. Bu cür insanların Allah'ın varlığını inkar etmək üçün irəli sürdükləri ssenarilərin əsası "hamı inanırsa, doğrudur" şəklindədir. Belə ki, dünya səviyyəsində təşkil edilmiş bu yalana qarşı elmi mübarizə aparmaq cəsarət tələb edir, çünki insan qarşısına milyonlarla insanı almış olur.

Halbuki, insanların əksəriyyəti "onlar dini inkar edirdilər, hamının birdən yanılmasının çətin olduğunu düşündüm" şəklində bəhanənin arxasında gizlənə biləcəklərini düşünürlər. Allah "Ənam" surəsinin 116-cı ayəsində: **"Əgər sən yer üzündə olanların əksəriyyətinə itaət etsən, onlar səni Allah yolundan azdırarlar. Onlar ancaq zənnə qapılır və ancaq yalan uydururlar",** -deyə bildirərək çoxluğa tabe olmağın doğru olmadığını xəbər vermişdir. Dolayısilə, bir fikri çox insanın müdafiə etməsi o fikrin mütləq doğru olduğu mənasına gəlməz.

Bu səbəbdən, insan hər zaman vicdanının səsini dinləməli, çoxluğun qəbul etdiyi fikirlərlə hərəkət etməkdən vaz keçməlidir. Yoxsa qarşısına çoxlu sayda insan toplayan hər insanın doğru yolda olduğu yanlış məntiqi çıxar ki, bu da dəlillərin yerini haqsız çoxluğun alması mənasına gəlir.

Çoxluğun təsirini güc kimi qəbul edən firon da hz. Musa ilə qarşılaşdığı zaman eyni vasitədən təzyiq kimi istifadə etmək istəmişdir. Hz. Musa Allah'ın varlığına dair açıq-aşkar dəlilləri göstərəndə isə firon bütün xalqını bir yerə toplamışdır. Bunu etməkdə məqsədi izdiham önündə qalib olmaq və xalqa təsir etmək idi. İkincisi isə izdihamın gücünün iman gətirənlərə təsir edəcəyini düşünməsi idi. Eyni şey hz. İbrahimin bütpərəst qövmünə də aiddir. Onun qövmünün

öndə gələnləri də hz. İbrahimlə danışmaq üçün bütün insanları toplamışdılar. Ayələrdə bu şəkildə buyurulur:

**Onlar dedilər: "Tanrılarımızı kim bu kökə salıb? Şübhəsiz ki, o, zalımlardandır!" (Bəziləri:) "İbrahim deyilən bir gəncin onları pislədiyini eşitmişik"– dedilər. (Digərləri də:) "Onu camaatın gözü qabağına gətirin ki, şahidlik etsinlər"– dedilər. (Ənbiya surəsi, 59-61)**

Əslində, bu, inkar edənlərdə mövcud olan bir düşüncə tərzidir. İnkarçılar iman gətirənlərlə qarşılaşdıqları zaman yalnız olmaqdan, ətraflarında onları dəstəkləyən insanların olmamasından narahat olurlar. Həmişə izdihamlı qrupla birlikdə olmaq istəyirlər. Ancaq iman gətirənlər Allah'ı dost və vəkil etdiklərindən heç vaxt heç bir mövzuda sarsılmazlar. Allah inananların sayca onlardan daha çox olanlara qarşı necə imani güc ilə hərəkət etdiklərini belə xəbər verir:

**(Bəzi) adamlar onlara: "Camaat sizə qarşı (ordu) toplayıbdır, onlardan qorxun!"– dedilər. Bu, onların imanını daha da artırdı və onlar: "Allah bizə yetər. O nə gözəl Qoruyandır!"– dedilər. (Ali-İmran surəsi, 173)**

Şübhəsiz, möminlər Allah'a olan təslimiyyətləri ilə qurtulacaqlar. Şeytanı və inkarda öndə gedənləri özlərinə dost edənlərin cəhənnəmdəki yalvarışları isə dünya həyatındakı haqsız izdihamın nə qədər yanlış yolda olduğunu insanlara açıq şəkildə göstərəcək. Çünki o gün inkar edənlər peşmançılıq içində tək-tənha qaldıqlarını söyləyəcəklər. O gün güvəndikləri izdiham onlardan uzaqlaşacaq:

**Həmin gün gerçək hökm vermək ancaq Rəhmana məxsusdur. O, kafirlər üçün çətin bir gün olacaqdır. Həmin gün zalım kimsə barmaqlarını dişləyərək deyəcəkdir:**

**“Kaş ki, mən Peyğəmbərin yolunu tutub gedəydim! Vay halıma! Kaş ki, filankəslə dost olmayaydım! Çünki Zikr mənə çatdıqdan sonra o, məni ondan uzaqlaşdırdı”. Həqiqətən, şeytan insanı tənha qoyub qaçandır. Peyğəmbər: “Ey Rəbbim! Qövmüm bu Quranı tərk etdi!”– deyəcək. (Furqan surəsi, 26-30)**

# YANLIŞ FİKİRDƏN QURTULMAQ

Bir fikrə etiraz etmək və ya onu tamamilə inkar etmək üçün əvvəl bu fikir haqqında ətraflı məlumat toplamaq lazımdır. Bir fikir, təklif və nəsihətdən heç nə oxumadan qaçmaq, bu mövzuya qarşı irəli sürüləcək alternativin olmadığını göstərir.

Bu vəziyyət Quran ayələrini dinləmək istəməyən şəxsin məntiqidir. Qurandan üz çevirənlərdən niyə Quranı dinləmədikləri, oxumadıqlarını soruşsaq, onların cavabları əvvəlki səhifələrdə qeyd etdiyimiz kimi, ya əzbərlənmiş ön mühakiməyə, ya da sadəcə zənn və təxminlərə əsaslanar. Bu şəxslərin Qurandan səmimiyyətsiz şəkildə qaçdıqlarının ən bariz nümunəsi isə Quran haqqında heç bir məlumatlarının olmamasıdır.

Əslində, bu, bir çox insanın bütün həyatını bürüyən böyük xətadır. İnsanların əksəriyyəti yanlış fikir ucbatından öz düşüncələrinə qarşı olan fikirləri öyrənməz, onların kitablarını oxumaq istəməzlər. Kommunist düşüncəyə sahib olanlar sadəcə öz fikirlərini müdafiə edən, faşistlər faşist düşüncəyə sahib olan şəxslərin, ateistlər də ateistlərin kitablarını oxuyarlar.

Ancaq bu vəziyyət insanların dünyagörüşünün artmasının qarşısını alır. Bir mövzu haqqında məlumatsız biri ilə o mövzu haqqında danışmaq, ona o fikrin yanlış və ya doğru tərəflərini izah etmək mümkün deyil.

Hər mövzuda məlumata yiyələnmək isə insanın qərar və fikirlərinin doğru və məqsədəuyğun olması baxımından vacibdir. Çünki məlumatsız insan hər cür təlqinə açıq olur. Bu səbəbdən, yanılma ehtimalı daha çoxdur. Şüurlu, mədəni, azad düşüncəli və dünyagörüşlü insanın baxışı isə daha geniş və təhlilləri daha ətraflıdır. Fikirləri də əzbərə deyil, konkret dəlillərə əsaslanır. Məhz belə insanlara yanlışları izah etmək, doğruları göstərmək daha asandır.

İman gətirənlər üçün bu vəziyyət başqa prizmadan vacibdir. Qurandan ətraflı məlumatı olan, eyni zamanda, mədəni və geniş məlumat sahibi olan möminin ətrafında baş verənlərə baxışı daha kəskin, qərarları daha məqsədəuyğun olur. Məsələn, dinsiz ideologiyaları, onların məntiqlərini və vəd etdikləri sistemlərin təhlükələrini bilən bir mömin Quranda tərif edilən əxlaqın üstünlüyünü təqdir edə bilir. Qurana qarşı olan kommunizm, faşizm və ya anarxizm kimi fikirlər haqqında məlumat sahibi olan bir mömin bu fikirləri Quranla analiz edərək insanlığa verdiyi zərərlərin fərqinə vara bilir. Beləliklə, insanlara bu zərəri bildirə bilər və doğru yolun Quran əxlaqını yaşamaq və yaşatmaq olduğunu izah edə bilər.

Məhz bu səbəbdən, insanların inkarda yarışdıqları bir dövrdə hər müsəlmanın üzərinə düşən vəzifə hər fikir haqqında məlumat toplamaq, Qurana qarşı fikirlərlə elmi mübarizə aparmaq üçün özünü yetişdirmək və mədəniyyətini, dünyagörüşünü artırmaqdır. Baş verən hadisələr qarşısında reaksiyasız qalmaq, "qarşı tərəf bunları deyir, biz də belə cavab verək" kimi düşünməmək, çıxış yolları axtarmamaq müsəlmana yaraşmaz. Müsəlman böyük şövq, əzm və imanla Quranda bildirilən həqiqətləri qəlbən yaşamalı, bir yandan da Qurana qarşı fikirlərin zərərlərini, pisliklərini, bu iddiaların yanlış tərəflərini öyrənməlidir. Çünki digər insanlara din əxlaqını izah etmək, dinə qarşı olan insanlarla fikri mübarizə aparmaq ancaq onların fikirlərini bilməklə mümkün ola bilər.

Bundan başqa, Quranda Allah'ın bir çox ayəsi ilə xəbər verdiyi

bütpərəst dinləri tanımaq, haqq dinləri necə degenerasiyaya uğradığını bilmək də vacibdir. Bununla keçmişdə baş verənlərin dövrümüzdə hansı formalarda ortaya çıxdığını görmək mümkün olur. Bu səbəbdən, Quranda "ataların dini" kimi vurğulanan batil dinləri, totem anlayışını da öyrənmək lazımdır. Belə ki, Quranda digər dinlərdən, müşriklərdən lat, uzza və mənata tapınan cəmiyyətlərdən bəhs edilir, iman gətirənlərin bu cür mövzular barədə məlumat əldə etmələrinin vacibliyinə diqqət yetirilir. Dolayısilə, müsəlman digər inancları, ideologiyaları və fəlsəfələri yaxşı bilməli, kitablarını oxumalı və hər biri haqqında məlumata yiyələnməlidir.

Müsəlmanın öyrənməli olduğu mövzuların sayını dilədiyimiz qədər artıra bilərik. Çünki Quranda bir çox elmə - biologiya, astronomiya, arxeologiya, botanika, coğrafiya, tarix, kimya, psixologiya, incəsənət kimi bütün həyatımızı əhatə edən məlumatlara diqqət çəkən ayələr var. Bu ayələrdən anlayırıq ki, əsas məlumatlara, mədəniyyətə sahib olan imanlı bir şəxs Allah'ın yaratdığı hər şeyi incəliklərinə qədər öyrənər, gördüyü mükəmməlliyi diqqətlə araşdırar, dolayısilə, özünü və kainatda var olan hər şeyi yaradan Allah'a dərin imanla bağlanar. Bundan başqa, elmi texnologiyadan xəbərdar olmaq Quranın möcüzələrinin görünməsində də vacib addım olacaqdır. Belə ki, **"... Allah'dan Öz qulları arasında ancaq alimlər qorxarlar...** (Fatir surəsi, 28)" ayəsi ilə də məlumat və fikir sahibi olmağın vacibliyinə diqqət çəkilmişdir.

## Müsəlmanın üzərinə düşən vacib öhdəlik

İnsanların əksəriyyəti Allah'a və Qurana iman gətirdiklərini söyləyirlər. Ancaq bu insanların əksəriyyəti ömürləri boyu bir dəfə də Quranı oxumamış və Quranda bildirilən əxlaqı, ibadətləri və hökmləri yerinə yetirməmişlər. Halbuki, bütün həyatını Qurandan xəbərsiz keçirmək və ya sadəcə iman gətirdiyini söyləyib Quranda tərif edilən həyatı yaşamamaq Allah'ın razı olmadığı bir davranışdır. Allah "Ən-

kəbut” surəsində bu şəkildə bildirir:

**İnsanlar elə güman edirlər ki, təkcə: “İman gətirdik!”– demələri ilə onlardan əl çəkiləcək və onlar imtahan edilməyəcəklər? Biz onlardan öncəkiləri də sınaqdan keçirmişdik. Sözsüz ki, Allah doğru danışanları da, yalançıları da aşkara çıxardacaqdır. (Ənkəbut surəsi, 2-3)**

Dolayısilə, Allah’a və Qurana iman gətirdiyini söyləyən hər kəsin Quranı oxuması, ayələr üzərində dərin düşünməsi, Allah’ın bütün insanlar üçün göndərdiyi Kitabı çox yaxşı öyrənərək tətbiq etməsi vacibdir. Çünki insanlar qiyamət günündə Qurandan və bütün etdiklərindən hesaba çəkiləcəklər.

İnkarçılar isə heç oxuyub-öyrənmədən sahib olduqları yanlış fikirləri səbəbindən Quranı inkar edirlər. Bir dəfə belə oxumadıqları, üzərində diqqətlə düşünmədikləri halda, Quranda xəbər verilən həqiqətlərdən qaçmalarının səbəbi imansızlıqlarından vaz keçməmələridir. Oxuyub-öyrəndikdən sonra nəticəyə varmağın əvəzinə: “Oxusam da, fikirlərimdən və ön mühakimələrimdən vaz keçməyəcəm”, -deyərək, onlara səmimi şəkildə yaxınlaşanları əvvəlcədən rədd edərlər.

Əvvəlki səhifələrdə qeyd etdiyimiz kimi, insanların əksəriyyəti Qurandan uzaq durarkən, ayələri inkar edərkən daim ətraflarındakı insanların təsiri altında qalırlar. Bəziləri din əxlaqını bilməyən və fərqli şəkildə tətbiq edən bir insanın təsiri üzündən dindən soyuyur, bu yanlış məlumatların təsirindən illərlə qurtula bilmir. Bəziləri isə ateist və ya dinə düşmən olan bir inkarçıdan eşitdiyini özünə ölçü götürür, bütün həyatını bu düşüncələrin əsasında qurur. Bu insanların ən böyük səhvi yanlış insanlardan eşitdikləri və oxuduqları ilə din haqqında qərar verməloridir.

Allah qatında əsl din Quranda bildirilən haqq dindir. Dolayısilə, din əxlaqını (istər inanan, istər inanmayan) öyrənmək istəyən hər insan ilk növbədə Qurana müraciət etməli və Quranı səmimiyyətlə oxumalı, ayələr üzərində dərindən düşünməlidir.

Məlumatsız və şüursuz şəkildə, sadəcə belə gördüyü və öyrəndiyi üçün Qurandan qaçmaq, bunu edən hər insan üçün böyük itkidir və belə itkinin (Allah'ın diləməsindən başqa) axirətdə əvəzi yoxdur. Bu səbəbdən, ağıllı və vicdanlı hər insan Allah'ın seçdiyi və Peyğəmbərimizə (s.ə.v) vəhy edərək göndərdiyi Kitabı oxuyub-öyrənməlidir. Allah Quranın insanları qurtuluş yollarına çatdıracağını bir ayədə belə bildirir:

**... Artıq sizə Kitabdan gizlətdiyiniz şeylərin bir çoxunu bəyan edən və bir çoxunun da üstündən keçən Elçimiz gəlmişdir. Artıq sizə Allah'dan bir nur və açıq-aydın bir Kitab gəldi. Allah Onun rizasını arayan şəxsləri əmin-amanlıq yollarına yönəldir, onları Öz izni ilə zülmətlərdən nura çıxarır və düz yola yönəldir. (Maidə surəsi, 15-16)**

Allah "Təkvir" surəsində insanlara Qurandan qaçmamağı tövsiyə edir:

**Bu, daşqalaq olunmuş şeytanın sözü də deyildir. Elə isə hara gedirsiniz? Bu, aləmlərə yalnız bir nəsihətdir – sizlərdən doğru (yolda) olmaq istəyənlər üçün. (Təkvir surəsi, 25- 28)**

Məhz bu səbəbdən, iman gətirənlərin üzərinə vacib vəzifə düşür: insanların Allah'ın ayələrindən qaçmasının qarşısını almaq üçün ciddi şəkildə səy göstərmək. Bunun üçün ilk növbədə elmlə insanlara Quranın sonsuz hikmətlərini izah etmək, Allah'ın yaradılış möcüzələrinə diqqət çəkmək, hər insanı yaradılış həqiqətindən, Quran əxlaqının nəsib etdiyi gözəlliklərdən xəbərdar etmək lazımdır. Əlbəttə ki, insanların əksəriyyəti bu həqiqətləri dinləmək və oxumaq istəmirlər. Ancaq bir müsəlman dinləyib oxumaq istəməyənlər üçün də dinləyə biləcəkləri və oxuya biləcəkləri şəkildə əsərlər yazmalı, hər alternativdən axıra qədər istifadə etməlidir.

# QURANI DİNLƏMƏYƏNLƏRİN BÖYÜK QƏFLƏTİ

Şeytanın yolu ilə gedən insanlar bütün kainatı yoxdan var edən Allah'ı inkar etdikləri üçün gördükləri hər varlığa ayrı-ayrılıqda mənlik verirlər. Bunların hər birinin Allah'dan müstəqil gücü olduğunu zənn edirlər.

Halbuki, bu varlıqlar tamamilə Allah'ın qüdrəti və hakimiyyəti altındadır. Bu varlıqlara insanın özü və yaşadıqları da daxildir. Çünki insan beyninin içində yaşadığı maddədən ibarət dünyanı qavrayır, yəni bu varlıqların beyninə verilən surətini görür və sadəcə beynindəki görüntülərlə əlaqədə olur. Bu görüntülərin əsli ilə əsla təmasda ola bilməz.

Məsələn, yolda gedən bir maşını görməyimiz, onun siqnal səsini eşitməyimiz və ya bu maşına mindiyimiz zaman oturacağının yumşaqlığını, metalının bərk olduğunu hiss etməyimiz üçün bu maşının əslinə çatmağımız vacib deyil. Biz maşının varlığına dair bütün məlumatları sadəcə beynimizdə hiss edirik. Dolayısilə, maşının xarici dünyada var olan əsli ilə əlaqədə olmağımız mümkün deyil. Bizim əlaqədə olduğumuz həqiqət sadəcə beş duyğu orqanımız sayəsində beynimizdə qavradığımız elektrik siqnallarından başqa bir şey deyil. Bizim ömrümüz sadəcə və sadəcə beynimizin içində keçir. Xaricdəki maddə ilə əsla əlaqədə ola bilmərik. (Ətraflı məlumat üçün baxın: Harun Yəhya, *Təkamül yalanı, Sonsuzluq artıq başlamışdır, Həqiqəti bilmək, Xəyalın digər adı : maddə, Qüllədəki kiçik adam*)

Eynilə, mitinqdə çıxış edən insan da, əslində, beyninin içindəki izdiham üçün danışır. Bu insan izdiham üçün danışdığını sadəcə zənn edir. Yəni çıxış edən insan beyninin içindəki mitinqdən kənara çıxmaz. İzdihamı təşkil edən insanlar da hər biri ayrı-ayrı onlara səslənən bu insanı öz beyinlərində görürlər. Bütün danışıqlar, bağırtılar insan beynindən kənara çıxmır.

Dolayısilə, heç vaxt əslinə çata bilməyəcəyi bir şeyin arxasınca qaçmaq, heç vaxt əsilləri ilə danışmadığı insanlara dəyər vermək, heç vaxt əslinə toxunmadığı əşyaları mənimsəmək beynindəki görüntünün xaricinə çıxa bilməyən bir şəxs üçün çox mənasızdır. Bu mövzunu yuxu nümunəsi üzərində düşünə bilərsiniz. Məsələn, yuxuda ətrini hiss etdiyiniz, görüntüsünü gördüyünüz, istiliyini hiss etdiyiniz bir yemək olmadığı halda, bu yeməyin dadına baxa bilər, hətta istidən dilinizin yandığını hiss edə bilərsiniz. Yaxud da məsuliyyətli bir işə gecikdiyinizi, buna görə də həyəcanlandığınızı da həyatdakı kimi bütün incəlikləri ilə yuxunuzda yaşaya bilirsiniz. Yuxudan oyanana qədər də yaşadığınızın həqiqiliyindən əmin olursunuz. Məhz yuxuda yaşanan bu hadisələr yaşadığımız dünyaya da aid ola bilir.

Bu, dünyaya bağlanan insanların düşünmək istəmədikləri aşıq-aşkar elmi həqiqətdir. Nə qədər qaçmağa çalışsalar da və qəbul etməmək üçün nə qədər israr etsələr də, bu, bir həqiqətdir. Üstəlik, bu, insanın bütün həyatı boyu yaşadığı bir həqiqətdir. Bundan qaçan hər kəs bilməlidir ki, onun beyninin içindəki dünyadan kənara çıxması əsla mümkün deyil. Dolayısilə, maddənin mütləq varlığı ilə əlaqədə olduğuna inanaraq Quranı inkar edənlər bu vacib məlumatlar əsasında düşünsələr, dəyər verdikləri şeylərin, əslində, bir qavrayışdan ibarət olduğu həqiqəti ilə qarşılaşarlar. Beləliklə, həvəslə bağlanmalarına, qorxmalarına və ya qürurlanmalarına səbəb olan şeylər də mənasını itirər.

Eynilə, sözlərinə etibar edilən, öndər qəbul edilən insanlar da Allah'ın insanların beynində yaratdığı qavrayışdan ibarətdir. Dolayısilə, şeytana, onun insan surətindəki təcəllilərinə və ya təsiri altın-

dakı insanlara qeyd-şərtsiz itaət etmək, əslində, yuxarıda bəhs etdiyimiz maddədən ibarət dünya ilə əlaqədə olduğunu düşünməkdən başqa bir şey deyil.

Bir insan maddənin əsl mahiyyəti ilə bağlı bu vacib həqiqətlərin fərqinə varmadan illərlə yaşaya bilər. Bəlkə bir çox insan kimi ətrafındakı insanları, təbiəti və bütün kainatı beyninin içində gördüyünü, xaricdə olanların həqiqətləri ilə əsla əlaqədə olmayacağını düşünməyə bilər. Ancaq bir neçə saniyə diqqətini toplayıb səmimiyyətlə düşünməsi insanın bütün həyata baxışını dəyişməsi və yanlış fikirlərdən qurtulması üçün yetərlidir.

Məsələn, siz əlinizdə tutduğunuz bu kitabı, kitabda yazılanları, bir-bir çevirdiyiniz səhifələri düşünün. Əslində, bunların hər biri duyğularınız vasitəsilə beyninizə gələn qavrayışdan ibarətdir. Gördüyünüzü zənn etdiyiniz kitabın əsli ilə təmasda olmadığınızı, yalnız beyninizə gedən elektrik siqnallarını qavradığınızı, səhifələri çevirdiyiniz əlinizin əsli ilə ömrünüz boyu heç qarşılaşmadığınızı bir daha düşünün. Bu möcüzəvi vəziyyəti anladığınız an əsl həyata başlayacaqsınız. Çünki maddənin əsli ilə heç vaxt əlaqədə olmayacağını və sadəcə xaricdə olanların görüntülərini görəcəyinizi əsl mənada anlamaq insanın dünya həyatında öyrənəcəyi ən böyük elmi həqiqətdir.

Bütün bu həqiqətlər insanın Allah'ın qarşısındakı aciz vəziyyətini bir daha sübut edir. Çünki şeytanın insanı boş vədlərlə aldatdığı dünya həyatı da insan üçün xəyal dünyasından başqa bir şey deyil. Bütün bu həqiqətlər hər şeyi yaradan Rəbbimizə təslim olmağımıza, Ona iman gətirməyimizə və Ondan qorxmağımıza gözəl vasitədir.

Bu kitabda izah edilənlər bütün insanlara bir xəbərdarlıqdır. Ümid edirik ki, vicdanlarının səsini dinləyənlər bu çağırışı dinləyib həqiqətlərdən qaçmazlar. Allah bir ayədə belə buyurur:

**Həqiqətən, bunda ibadət edənlər üçün bir bildiriş vardır. (Ənbiya surəsi, 106)**

# NƏTİCƏ

Bu kitabda izah edilən insan xarakterlərini əsla özünüzdən uzaq görməyin. Çünki siz də Quranı indiyə qədər oxumamış və ya oxumaq istəsəniz də, indiyə qədər sahib olduğunuz ön mühakimələrə görə oxumaqdan vaz keçmiş ola bilərsiniz. Bəlkə gündəlik işlərinizin çoxluğundan vaxt ayıra bilmədiyinizi düşünərək belə qərar vermiş, bəlkə də ətrafınızdan "çox oxuma, yoxsa təsiri altına düşərsən" kimi məntiqsiz təlqinlər almış ola bilərsiniz. Ya da sadaladığımız bu ehtimalların heç birini yaşamamış və Quranı oxumağı ağlınızdan belə keçirməmiş ola bilərsiniz. Ancaq önünüzdə böyük bir imkan var: şeytanın insanların Quranı dinləmələrinə mane olmaq üçün verdiyi əmrlərə tabe olmayıb vicdanınızın səsini dinləyə bilərsiniz.

Əgər Quranı oxuyan, ayələrdə bildirilən həqiqətləri bilən bir insansınızsa, yenə də qarşınıza gözəl bir fürsət çıxmışdır. Burada izah edilənlərdən Qurandan qaçan insanların necə böyük bir zərərdə olduqlarını görmüş vicdanlı bir insan kimi başqalarının da Quranı oxumalarını tövsiyə edə bilərsiniz. İnsanları Allah'ın dinini öyrənməyə, Quran əxlaqını yaşamağa, İslamın verdiyi gözəllikləri öyrənməyə təşviq edə bilərsiniz.

Hər şeyi yoxdan var edən və dünyanı insanlar üçün bir imtahan yeri edən Rəbbimiz, şeytana güc verib insanlara "eşitmə, dinləmə, düşünmə" dedizdirir. Ancaq siz bu imtahanın fərqinə varıb şeytanın əmrlərinə qulaqlarınızı tıxamalı və vicdanınızın: "Eşit, dinlə", -deyən

sözünə tabe olmalısınız. Unutmayın ki, sizə şeytanın təlqinlərini verən, Allah'a iman gətirməyinizə mane olan, güc və iqtidar sahibi görünən öndərləriniz də Allah'ın sizi sınamaq üçün yaratdığı varlıqlardır. Allah şeytanın bu çağırışlarına necə qarşılıq verəcəyinizlə bağlı sizi sınayır. Eynilə, onların "kitabları oxumayın, düşünməyin" əmrlərini verən səsi yaradanın da Allah olduğunu əsla unutmayın.

Unutmayın ki, bu insanların hər birinin ayrı-ayrı güc sahibi olduğunu düşünərək, onlardan çəkinmək, qorxmaq və heç düşünmədən onlara itaət etmək böyük səhvdir. Çünki o insanların hər biri də Allah'ın onlar üçün yazdığı qədərə təslim olurlar və Allah diləmədikcə heç nəyə güc yetirə bilməzlər. Ancaq bir həqiqət var, o da bütün insanların bu gün, ya da sabah, yaxın, ya da uzaq bir zamanda mütləq ölüm mələkləri ilə qarşılaşıb tək-tənha hesaba çəkiləcəkləridir. Hər insan istəsə də, istəməsə də, ağ bezə sarılıb yerin üç metr altına girəcək və üstünə torpaq atılacaq. Hər insan Allah'ın hüzuruna çıxacaq. Bilin ki, insan Allah'ın hüzuruna çıxdığı anda yanında onu Allah'ı inkar etməsini dəstəkləyən, təşviq edən, hətta özü də inkar edən, dost sandığı insanlardan heç biri olmayacaq. Bu səbəbdən, sizi inkara təşviq edən insanların canlı və sağlam olmaları sizi aldatmasın. Çünki hesab günü o insanların heç birini yanınızda görməyəcəksiniz. Allah ayədə belə bildirir:

**Hüzurumuza ilk dəfə sizi xəlq etdiyimiz kimi tək-tənha, həm də sizə verdiyimiz (nemətləri) arxanızda qoyub gəldiniz. Öz aranızda (Allah'a) şərik saydığınız şəfaətçilərinizi də yanınızda görmürük. Artıq aranızda əlaqə qırılmış, iddia etdiyiniz (tanrılar) isə sizdən uzaqlaşmışdır. (Ənam surəsi, 94)**

Bu səbəbdən, siz də o gün gəlmədən öncə Quran həqiqətindən qaçmaqdan vaz keçin, vaxtınızı Quranı oxumağa və oxutmağa, Quran ayələri üzərində düşünməyə və düşündürməyə ayırın.

# ƏLAVƏ BÖLMƏ
# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və

etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

### Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

## Keçilməz ilk pillə: həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

## Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki

qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

> "Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

## XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

> "Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu

iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

> "Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

## Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

- **Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**
- **Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**
- **Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**
- **Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən

məşhur təkamülçü prof. Lesli Orcel “Scientific American” jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

“Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir”. *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

## Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: “Növlərin mənşəyi, təbii seleksiya yolu ilə...”

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

## Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. *(B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)*

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii

seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

> "Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mu-

tasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

## Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

> "Əgər nəzəriyyəm doğrudursa, növləri bir-birilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşa-

malıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". *(Derek A. Ager, "The Nature of*

*the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)*

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

> "Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

### İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*
*Homo habilis*
*Homo erectus*
*Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "Australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221;*

*M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

> "Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxə-

lənmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın “təkamülü” yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

> “Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür”. *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

## Darvin formulu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından “Darvin formulu” adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad

etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi

sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

## Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab

verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

## Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

> "Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist

açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dol-

duran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah’ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah “Hicr” surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub dü-**

**zəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**…Sənin bizə öyrətdiklərindən
başqa bizdə heç bir bilik yoxdur!
Həqiqətən, Sən Bilənsən,
Müdriksən! (Bəqərə surəsi, 32)**